# QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 025 (6225) 10 fevral 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Ərdoğan: "Azərbaycanın özü qərar verib Qarabağı geri aldı"

Bax 7

Otuz ildir ki, Azərbaycan torpağı Qarabağı işğal altında tutdunuz. O torpaqlar azərbaycanlı qardaşlarımızındır. Azərbaycanın özü qərar verib Qarabağı geri aldı və biz də əlimizdən gələn dəstəyi verdik. AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident...




## "Enerji sahəsində əməkdaşlıq bizim tərəfdaşlığımızın mühüm hissəsidir"

Bax 2



*Prezident İlham Əliyev Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət nazirini qəbul edib*

## Nəqşicahan - Azərbaycanın Şərqə açılan qapısı

Bax 5




Tarixi İpək Yolunun üzərində yerləşən, xalqımıza məxsus milli- mənəvi, zəngin təbii sərvətləri ilə məşhur olan, ilk yaşayış məskənlərindən sayılan Naxçıvan tarixi şəxsiyyətləri, elm xadimləri, sənətkarları ilə də tanınır. Bu torpağın yetirməsi, dünya siyasətçiləri arasında müdrikliyi, uzaqgörənliyi ilə...

## Rusiyaya pomidor və alma ixracının bərpası yerli bazarda qiymətlərə necə təsir edir?

Bax 7

Azərbaycandan Rusiyaya ixrac olunan pomidor və alma məhsullarına tətbiq edilən məhdudiyyətlərin tamamilə aradan qaldırılması istiqamətində AQTA və aidiyyəti qurumlarla birgə müvafiq tədbirlərin davam etdirilməsi yerli bazara da öz təsirini göstərməkdədir. "İki sahil" Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazarına istinadən xəbər verir ki, əsasən pomidorun qiymətində...



## Ermәni әsgәri Bakıdan "qaçırmaq" istәyәn şәxs hәbs edildi



Dağlıq Qarabağdakı döyüş əməliyyatları zamanı itkin düşən S.X. adlı əsgərin atasından rüşvət alan dələduz saxlanılıb. SİA xəbər verir ki, əsgərin atasından 1000 dollar alan A.A. adlı fırıldaqçı Ermənistan Milli Təhlükəsizlik Xidməti...

Bax 13

## Xankəndidə baş verən təxribatlara susaq, yoxsa?..



Artıq kifayət qədər bəllidir ki, ikinci Qarabağ savaşında - Vətən müharibəsində əldə edilən qələbəmizin ardınca imzalanan üçtərəfli bəyanatın bir sıra müddəalarına əməl olunmur və bəyanatın müddəalarını pozan da, məhz erməni tərəfidir, bu məsələ ətrafında kifayət...

Bax 10

## Serbiya Azərbaycan ilə strateji tərəfdaşlıqdan qürur duyur



Bax 4

## 190 manat birdəfəlik yardım nə zaman verilir?



Bax 3

## Daha üç həkim Maradonanın ölümünə görə istintaqa cəlb olundu



Bax 16

# "Enerji sahəsində əməkdaşlıq bizim tərəfdaşlığımızın mühüm hissəsidir"

*Prezident İlham Əliyev Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət nazirini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonu qəbul edib. AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın dövlət nazirini salamlayan Prezident İlham Əliyev dedi:**

-Sizi Azərbaycanda görməyə çox şadam. Əminəm ki, səfəriniz yaxşı nəticələrlə çox uğurlu olacaq. Bu, bir daha ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətlərini və əlbəttə ki, əməkdaşlığımızı davam etdirmək üçün gələcək planlarımızı əks etdirir. Çox yaxşı siyasi təmaslarımız, çox fəal siyasi dialoqumuz var. Sizin Azərbaycana səfəriniz bunu bir daha nümayiş etdirir.



Əlbəttə ki, enerji sahəsində əməkdaşlıq bizim tərəfdaşlığımızın mühüm hissəsidir. Biz böyük layihə olan Cənub Qaz Dəhlizini tamamlamağa çox şadıq. Bilirsiniz ki, BP bizim strateji tərəfdaşımızdır. Bu şirkət Azərbaycanda həyata keçirilən əsas layihələrdə lap əvvəldən investor qismində iştirak edib. "Əsrin müqaviləsi"nin vaxtının uzadılmasından sonra bizim əməkdaşlığımız bir çox onilliklər ərzində davam edəcəkdir. Azərbaycanda qaz hasilatı ilə bağlı yeni hadisələri və keçən ilin dekabrında tamamlanmış infrastrukturu nəzərə alaraq bizim qarşımızda indi yeni imkanlar var. BP tərəfindən istismar olunan yataqlarda yeni mənbələrin kəşf ediləcəyinə ümid edirik. Bunun üçün bizim yaxşı perspektivlərimiz var. Bu, bizim ikitərəfli əlaqələrimizin, həmçinin digər ölkələrlə olan əməkdaşlığımızın mühüm hissəsidir. Biz region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratmışıq və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərilir. Yeri gəlmişkən, iki gündən sonra Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının yeddinci iclası keçiriləcək. Bu iclasda biz nailiyyətləri nəzərdən keçirəcəyik və gələcək əməkdaşlığa ümid bəsləyəcəyik. Əlbəttə ki, Birləşmiş Krallıqdan Azərbaycana qoyulan investisiyalar bizə ölkəni müasirləşdirməyə çox kömək edib. Bu investisiyalar əsasən enerji sektoruna yatırılmışdır - demək olar ki, 30 milyard dollardır. Bu, bizə iqtisadiyyatı şaxələndirmək üçün neft-qaz satışından əldə olunmuş gəlirlərdən müvafiq şəkildə istifadə etmək imkanını vermişdir. Ona görə də mən əminəm ki, qarşıdakı illərdə bizim diqqətimizi cəmləşdirəcəyimiz əsas sahə Azərbaycanın qeyri-enerji sektorunun inkişafı olacaq.



Görüşümüzdən əvvəl mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, demək olar 600 Britaniya şirkəti Azərbaycanda qeydiyyatdan keçib. Bu, həqiqətən də iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin yaxşı göstəricisidir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma üçün böyük potensialımız var. Biz artıq Britaniya şirkətləri ilə təmaslara başlamışıq. Onlardan biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub və mən ümid edirəm ki, onların sayı daha çox olacaq, çünki orada çox işlər görülməlidir. Hər şey dağılıb. Bərpa olunan enerji sahəsində böyük potensial var. Mən Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilirəm. Çox yaxşı günəş, külək, su potensialı var. Beləliklə, biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq. Mən artıq bu əraziləri "yaşıl zona" ərazisi elan etmişəm. Biz insanların tələbatını ödəmək üçün külək, günəş və sudan əldə olunan enerjidən istifadə edəcəyik. Biz artıq elektrik enerjisi ixracatçısına çevrilmişik. Bu səbəbdən də bunun üçün potensial həqiqətən də çox yüksəkdir. Sözsüz ki, ölkələrimiz arasında əməkdaşlıq üçün bir çox başqa sahələr böyük əhəmiyyət kəsb edir. Bir daha ölkəmizə xoş gəlmisiniz.

Böyük Britaniyanın dövlət naziri Vendi Morton:

-İkitərəfli münasibətlərimizə gəldikdə, biz bir çox sahələrdə əməkdaşlıq edirik. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq daha da genişlənəcəkdir. Mən dünən səfirimiz tərəfindən təşkil olunmuş proqram sayəsində Azərbaycan mədəniyyəti ilə tanış oldum.

x x x

Görüşdə postmünaqişə vəziyyəti, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" konsepsiyasının tətbiqi, vətəndaş cəmiyyətinin inkişafı, gender bərabərliyi, energetika, o cümlədən bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkilləri çəkdirildi.

---

## Fransa portalında "İslam və müasirlik:
# Azərbaycan ilk nümunə" sərlövhəli məqalə dərc olunub

**Fransada "Musulmansenfrance" portalında Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin (CNRS) islamşünas alimi, Paris Tədqiqatlar Ali Məktəbinin doktoru, bir çox beynəlxalq tədqiqat qruplarının üzvü Karim İfrakın "İslam və müasirlik: Azərbaycan ilk nümunə" sərlövhəli məqaləsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə Qafqazın mirvarisi olan Azərbaycanda dünyəvilik və tolerantlıqdan, eləcə də ölkəmizdə qadınlara səsvermə hüququ verilməsindən bəhs olunur. Bildirilir ki, ölkəmizdə müsəlman dünyasında son dərəcə nadir fenomeni izah etməyə imkan verən tendensiya var. Belə ki, təriqətlər arasında hər hansı gərginlik yaşanmır. Bunun sirri isə dünyəviliyin yüksək səviyyədə dəstəklənməsidir. Çoxmillətli, çoxmədəniyyətli və çoxkonfessiyalı ölkə olan Azərbaycan bütün dünyada mədəni və dini tolerantlığı ilə seçilir. Konstitusiyasının 18-ci maddəsinə əsasən, din dövlətdən ayrıdır və bu, Azərbaycan dünyəviliyinin cismini və ruhunu formalaşdırır. Ölkədə bütün etiqadlar və inanclar qanun qarşısında bərabərdir. Azərbaycan dünyanın ən mütərəqqi və dünyəvi İslam ölkəsidir.



SOCIÉTÉ INTERNATIONAL ISLAM FRANCE ÊTRE MUSULMAN EN OCCIDENT INTER-RELIGIEUX RUBRIQUES العربية ENGLISH

les arts et la culture, conjuguée au potentiel touristique de ce pays pluriethnique, ont fait de l'Azerbaïdjan, et ce du temps de l'Union soviétique déjà, un des pays socialistes les plus visités en matière de tourisme. Une tendance qui n'a pas faibli jusqu'à présent. Grâce à ses nombreux villages-vacances nichés au cœur des somptueux paysages de plaine et de montagne, cette « Terre de feu » a accueilli, en 2019, quelques 3,17 millions de visiteurs venus du monde entier. Une fréquentation en hausse de plus de 11 % par rapport à l'année 2018. Et si l'Azerbaïdjan rencontre une demande touristique de plus en plus forte, c'est justement par ce qu'il ne cesse de déployer des efforts considérables en terme de dialogue et d'ouverture sur le monde. C'est le cas notamment du « Processus de Bakou », un événement unique qui réunit, dans la perspective de renforcer le dialogue interculturel, l'Organisation de la Coopération Islamique et les États membres du Conseil de l'Europe. Et en corroboration à cette manifestation internationale, *Le Forum mondial sur le dialogue interculturel*, au programme tous les deux ans, a été reconnu par des résolutions de l'Assemblée générale des Nations Unies comme une plate-forme mondiale clé pour la promotion du dialogue interculturel. Un beau palmarès que l'Azerbaïdjan s'attache à étoffer en prenant le soin d'accueillir, notamment, le VIIe *Forum mondial de l'Alliance des civilisations des Nations Unies.*

Le Nakhitchevan. Photo par ilkin Qazi de Pixabay

UNE NATION PIONNIÈRE DU DROIT DES FEMMES

Sur le plan des droits des femmes, l'Azerbaïdjan fait également office de leader. Les élections de 2020, qui ont accordé dans bien des cas l'avantage aux femmes, d'ailleurs très investies, laissent présager qu'il y aura de plus en plus de femmes dans la vie politique. Une avancée qui confirme l'importance accordée à la scolarisation des adolescentes (94,54% selon les statistiques de l'Unesco) et qui fait de l'Azerbaïdjan, par ricochet, un des pays où le pourcentage des femmes chercheures est parmi les plus élevés au monde. Rien d'étonnant eu égard à l'histoire de ce pays en termes de droits fondamentaux des femmes. Dans l'esprit de cet État progressiste, l'éducation a toujours été synonyme d'émancipation. C'est pourquoi, à l'aube du XXe siècle déjà, Bakou avait ouvert, en 1901, les portes de sa première école musulmane pour filles et accordé, en 1902, à *La Société de défense*



SOCIÉTÉ INTERNATIONAL ISLAM FRANCE ÊTRE MUSULMAN EN OCCIDENT INTER-RELIGIEUX RUBRIQUES العربية ENGLISH

ISLAM ET MODERNITÉ : L'AZERBAÏDJAN, L'EXEMPLE PIONNIER

Bakou. Photo de Maya Baghirova

Facebook Twitter

Karim IFRAK

Docteur de l'École Pratique des Hautes Études (EPHE), Karim IFRAK est islamologue. Chercheur au CNRS, il est spécialiste de l'histoire des Textes et des idéologies contemporaines. Comptant à son actif plusieurs contributions écrites, il est l'auteur de : « **Faut-il réformer l'islam ? Quelques clés de lecture** », éd. Bouraq, Paris, 2017. « **Liberté, Égalité, Fraternité : Valeurs Spirituelles, valeurs Républicaines** », (préfacé par le Premier Ministre M. Édouard PHILIPPE), Olivétan, Lyon, 2018. « **Ibn Achour, sa vie, son œuvre et sa pensée** », aux éditions de l'IMA, 2020.

UNE TERRE PIONNIÈRE

Établi aux lisières des trois anciens empires, russe, ottoman et sassanide, l'Azerbaïdjan (10 M) fait partie des six ex-républiques soviétiques musulmanes : l'Ouzbékistan (32 M), le Tadjikistan (8,5 M), le Turkménistan (5,5 M), le Kazakhstan (18,6 M) et le Kirghizistan (6 M). Situé à mi-chemin entre l'Europe et l'Asie centrale, ce vieux pays du Caucase, à la base simple port de commerce et de transit sur la mer Caspienne, allait vite devenir, au lendemain de « la révolution industrielle » (XVIIIe), le cœur d'une intense activité économique ouverte sur l'international. Un peu plus tard, portée par l'idéal révolutionnaire de l'État-nation, cette « Terre de feux », se voulant résolument progressiste, prôna, au lendemain de son indépendance (1918) la liberté de conscience en instituant la **laïcité** et l'égalité des chances en instaurant un régime parlementaire. Sans ambages, l'article 4, de sa déclaration d'indépendance reconnaissait : « *les droits civils et politiques à tous les citoyens d'Azerbaïdjan, sans distinction de nationalité, de religion, de position sociale et de sexe* ». Une reconnaissance qui accorda très tôt le droit de vote aux femmes, faisant de la République Démocratique de l'Azerbaïdjan un pays pionnier en la matière, longtemps avant le Royaume-Uni (1928), le Canada (1940), la France (1944), l'Italie (1946), la Belgique (1948) la Grèce (1952), les USA (1965), la Suisse (1971), etc. Dans le monde

Məqalədə Azərbaycanda mədəniyyətə, incəsənətə mühüm yer verildiyi qeyd edilir. Diqqətə çatdırılır ki, ölkəyə turist axınının əsas səbəblərindən biri onun dialoq və dünyaya açıq olmasıdır. Həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurasına üzv ölkələri bir araya gətirən "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa verilən önəmdir.

Vurğulanır ki, iki ildən bir keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə müəyyənləşdirilən mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma kimi qəbul edilib. Bakı BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna uğurla ev sahibliyi edib.

# Qarabağda nasist caniyə heykəl qoyulub, rus kilsələri dağıdılıb

**"Komsomolskaya Pravda" qəzetində Azərbaycan Prezidenti Administrasiyasının Xarici KİV və QHT-lərlə iş sektorunun müdiri Fuad Axundovun "Qarabağda nasist caniyə heykəl qoyulub, rus kilsələri dağıdılıb. Cinayətləri gizlətmək mümkün olmayacaq" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC həmin məqaləni təqdim edir.**

X X X

Riyakarlıq. "Qarabağın rus icmasının rəhbəri müharibədən sonrakı həyatı təsvir edib" sərlövhəli iddialı məqaləni lap dəqiq səciyyələndirmək üçün ən münasib söz bu olardı. Heç kəs üçün sirr deyil ki, "yerli hakimiyyət orqanları" belə görüşləri və belə məqalələri çox vaxt öz məqsəd və "məramlarını" təbliğ etmək məqsədilə təşkil edirlər.

"Moskovski komsomolets" qəzetinin müxbirinin müsahibi Qalina Somova özünü "Dağlıq Qarabağın rus icmasının rəhbəri" kimi təqdim edərək, Moskvanın nüfuzlu nəşrində oxunması kimlərinsə xoşuna gələcək sözlər demək qərarına gəlib, lakin öz sözlərinin həqiqətə nə dərəcədə uyğun olması, daha dəqiq desək, öz sözlərinin həqiqətdən nə qədər uzaq olması onu o qədər də narahat etməyib.

"Yerli rusların pravoslav kilsəsi yoxdur", - deyə gileylənən Q.Somova daha sonra əlavə edir: "Yeri gəlmişkən, burada bizim öz rus kilsəmiz də olmalı idi, lakin hələlik arzularımız çin olmayıb. 2010-cu ildə kilsə tikilməsi nəzərdə tutulan yerdə gələcək kilsənin təməli qoyuldu və oraya xaç suyu çəkildi. Amma hələlik yalnız rusiyalı sülhməramlıların keşişi Boris ataya ümid edirik".

Bir qədər izahat verək. Xatırladırıq: Lap yaxın vaxtlarda Qarabağda, Xocavənd şəhərində (ermənilər buranı Martuni adlandırırdı) nasist, Hitlerin əlaltısı Qaregin Njdenin heykəlinin açılışı olub. Bu həmin Njdedir ki, hitlerçilərin Holokost qurbanlarından qarət etdikləri sərvətlərin, əsasən qızılın "reallaşdırılmasına" kömək edirdi. Fürerə xidmət etdiyinə görə, sovet məhkəməsinin hökmü ilə 25 il həbs cəzasına məhkum edilmişdi. İndi həmin subyektə heykəllər qoyurlar. Özü də guya Hitlerə xidmət etdiyinə görə yox, "yalnız" azərbaycanlılara qarşı etnik təmizləmələr apardığına görə. Bugünkü Ermənistan eyni siyasəti təkrar edir.

Bir məqamı qeyd etmək xoş olmasa da, xatırlatmalıyam: "Bir neçə il bundan əvvəl Rusiya incəsənət "ulduzlarının" iştirakı ilə hətta Njdenin bioqrafiyasından bəhs edilən film də çəkilib. Əlbəttə, həmin filmdə Njdenin Hitlerə xidmət etməsi barədə bir kəlmə də deyilmir, amma bir ibrətamiz epizod var: Njdeyə Zəngəzurda neçə "türk kəndi" qalması barədə məlumat verirlər, sonra o, deyir: "Biz bu kəndləri azad edəcəyik!" Amma məlum olur ki, Njde həmin kəndləri dinc yerli əhalidən "azad etməyə" hazırlaşırmış. Sonra müasir Ermənistan Dağlıq Qarabağ ətrafındakı Azərbaycan rayonlarını işğal edir, orada erməni əhali ümumiyyətlə yox dərəcəsində olub, sonra isə bu torpaqları "azad edilmiş ərazilər" adlandırırlar. Sevindirici haldır ki, indi artıq Ermənistanın özündə politoloqlar soruşurlar: "Biz bu torpaqları kimdən azad etmişik?"

Düşünmək olardı ki, bu kəndlər yağı düşmən tərəfindən zəbt edilibmiş, "xilaskar qəhrəman" Njde isə onları azad etməyə çalışır. Amma yox, əslində, söhbət dinc Azərbaycan kəndlərindən gedir və bu kəndlərin sakinlərinin bütün "təqsiri" onların erməni olmaması, onların torpağında Njdenin "Dağlıq Ermənistan" yaratmaq niyyətinə düşməsidir. Bu müharibə canisinə artıq Yerevanın mərkəzində heykəl qoyulub. Rusiyada da ona xatirə lövhəsi qoymağa cəhd



MKRU
НОВОСТИ ПОЛИТИКА ЭКОНОМИКА ПРОИСШЕСТВИЯ ОБЩЕС
ВЧЕРА В 19:07 ПОЛИТИКА 2327

В Карабахе установлен памятник нацистскому преступнику и разрушены русские церкви

Скрыть преступления не удастся

ПОДЕЛИТЬСЯ

Фарисейство — именно так точнее всего можно охарактеризовать статью под претенциозным заголовком «Глава русской общины Карабаха описала жизнь после войны». Ни для кого не секрет, что такие встречи и такие статьи чаще всего организуются «местными властями» для продвижения собственных целей и «установок».

НОВОСТИ ›
14:21 Новым худруком "Го стал Алексей Агранс
14:20 Двое сотрудников та задержаны за покуп многомиллионную в
14:20 Песков: просьбы ФБ сейчас преступлени являются
14:16 Захарова назвала со ФБК "агентами влия натовцев"
14:15 Чубайса сняли со вс РСПП
13:58 Ан-12 потерпел авар посадке на Курилах

göstərilib, lakin Rusiyanın hakimiyyət orqanları buna imkan verməyiblər. Fikir verin, bu murdar "monument" üçün vəsait tapılıb, amma pravoslav məbədi üçün tapılmayıb. Şuşada "Qarabağ parlamenti" binası üçün də pul tapılıb, təkcə pravoslav məbədi üçün tapılmayıb.

Bir məsələni də xatırladaq. Dağlıq Qarabağ ermənilər tərəfindən işğal edilənə qədər orada pravoslav məbədləri vardı, lakin erməni işğalı dövründə bu məbədlərin başına nələr gətirilməsi maraqlı məsələdir.

Qarabağın tarixi paytaxtı Şuşa şəhərində hələ XIX əsrdə Müqəddəs vəftiz İohan rus pravoslav kilsəsi tikilib. Şuşada bu şəhərin yerli sakinləri - azərbaycanlılar yaşadığı illərdə bu kilsə salamat mövcud olub: Rusiya imperiyası dövründə də, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti illərində də, sovet Azərbaycanında da, Azərbaycanın dövlət müstəqilliyi elan ediləndən sonra 1991-1992-ci illərdə, Şuşa şəhəri işğal olunana qədər belə qədər.

Bəs yeni peyda olmuş erməni "sahiblər" bu kilsə ilə necə rəftar ediblər? Onlar pravoslav məbədinin günbəzini söküb, kilsəni erməni üslubunda təmir edərək, onu erməni məbədi elan ediblər. Lakin Somovanın müsahibəsində bu barədə bircə kəlmə də deyilmir. Somova yalnız Şuşada və Hadrutda rus qəbiristanlığının hansı vəziyyətdə qalmasına görə narahatlığını bildirir.

Xanım Somovanı əmin edə bilərik: Azərbaycan sivil ölkədir. Biz tarixi abidələrlə, xüsusən qəbiristanlıqdakı məzarlarla "döyüşmək" niyyətində deyilik. Erməni qəbirləri ilə bağlı insident məsələsinə gəldikdə isə artıq neçənci dəfə xatırladırıq: Azərbaycan Respublikasının Baş Prokurorluğu bu hadisə ilə əlaqədar təhqiqat aparır, həmin kadrlarda görünən hərbi qulluqçular həbs edilib. Maraqlıdır, Ermənistanda heç olmasa bir dənə buna oxşar presedent varmı? Hərbi cinayətlərə görə, dağıdılmış və qarət edilmiş muzeylərə, sözün hərfi mənasında, donuz saxlanan yerə çevrilmiş məscidlərə görə Ermənistan vətəndaşlarından kimisə cəzalandırıblarmı?

Hadrut və onun ətraf bölgələri barədə ayrıca söhbət açmaq lazımdır. Burada, daha dəqiq desək, Hadrutun özündə yox, onun yaxınlığındakı Kuropatkino kəndində rus pravoslav kilsəsi vardı . Görün, indi həmin kilsə nə vəziyyətdədir. Yox, bunlar müharibənin izləri deyil - erməni işğalçılar bu kilsəni sadəcə dağıdıblar.

Üstəlik, kilsənin divarlarında birmənalı qrafitti qalır. Erməni işğalı ilə birlikdə xoşagəlməz siyasi texnologiyalar da Qarabağa "ixrac olunub". "Sputnik Armenii" həmin siyasi texnologiyalar barəsində yazıb: "Doxsanıncı illərin əvvəlində İsaakyan küçəsindəki 38 nömrəli evin divarından "Rus İncəsənət Muzeyi" lövhəsi çıxarılanda bu hərəkətə uşaq dəcəlliyi kimi yanaşdılar. Halbuki, həmin muzeydə başqa eksponatlarla bərabər, moskvalı professor Aran Abramyanın Yerevana hədiyyə etdiyi rəsm əsərləri də saxlanılırdı. Yerevandakı milis alayının kazarmalarına hücum edənlərin şüarı belə idi: "Bizim mübarizəmiz Rusiya müstəmləkəçiliyinə qarşı yönəlib, Rusiya telekanallarını bağlamaq, rusiyalı sərhədçiləri dərhal döyüş növbəsindən çıxarmaq, gömrükdəki hərbi bazanı oradan yığışdırmaq lazımdır". O vaxt düşünürdülər ki, bir qədər hay-küy salıb sonra sakitləşəcəklər".

Hitlerin əlaltısı Njdeyə pərəstiş də "ixrac edilib", ermənilərin nəzarətində olan ərazilərdə "etnik təmizləmə" aparılıb, tarixi abidələr məhv edilib. Dünya Yerevanın timsalında bütün bunları görüb, oradakı bütün tarixi tikililər, o cümlədən İrəvan qalası, məscidlər, Xan sarayı buldozerlə kürünüb... İndi eyni əməllər Qarabağda təkrarlanıb. Oradakı məscidlər və teatrlar, muzeylər və məktəblər, yaşayış evləri, hətta qəbiristanlıqlar da vəhşicəsinə dağıdılıb.

Bu cinayətlərin "müəllifləri" cəzasız qalacaqlarına əmin idilər. Onlar şübhə etmirdilər ki, dağıdılmış kilsələrin taleyindən heç kəs xəbər tutmayacaq. Buna görə də özləri Rusiyanın böyük dostları kimi təqdim etmək üçün dəridən-qabıqdan çıxırdılar. Lakin indi bu torpaqlar Azərbaycan Ordusu tərəfindən azad ediləndən sonra çoxları üçün narahatlıq doğuran bir sıra detallar və təfsilatlar üzə çıxır. Üstəlik, indi jurnalistlərin böyük bir qrupu işğaldan azad edilmiş torpaqlara yola düşüb. Erməni millətçilər isə onları qabaqlamağa çalışırlar.

Lakin, necə deyərlər, faktlar inadkar şeydir. Heç bir riyakarlıqla onları ört-basdır etmək mümkün deyil.

## Ceyhun Bayramov ilə ABŞ Dövlət Katibinin köməkçisi Filip Riker arasında telefon danışığı olub

Fevralın 8-də xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ-ın Avropa və Avrasiya məsələləri üzrə dövlət katibinin köməkçisi vəzifəsini icra edən Filip Riker arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tərəflər bölgədə mövcud olan cari vəziyyəti, o cümlədən 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.




Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## 190 manat birdəfəlik yardım nə zaman verilir?



"Koronavirusla mübarizə zəmnində 190 manat birdəfəlik yardımların verilməsində Dövlət Məşğulluq Xidməti icraedici orqandır. Bununla bağlı qərar Nazirlər Kabineti tərəfindən verilir". Bunu SİA-ya açıqlamasında Nazirlik yanında Dövlət Məşğulluq Agentliyinin mətbuat katibi Əsmər Nəcməddinqızı deyib. Ə. Nəcməddinqızı vurğulayıb ki, ona görə də yanvar ayı üçün 190 manat birdəfəlik yardımın veriləcəyi və ya verilməyəcəyi barədə bizdə bir məlumat yoxdur.

***Aysel Məmmədova***

## Azərbaycan əsgəri ermənilərin Xudavəngə daxil olmasına icazə vermədi!

Fevralın 7-də bir qrup Qarabağ ermənisi rusiyalı sülhməramlılarının müşayiəti ilə Kəlbəcər ərazisində yerləşən qədim Alban kilsəsi - Xudavəngin ərazisinə daxil olmaq istəsələr də, Azərbaycan hərbçiləri onları monastırın ərazisinə daxil olmalarına icazə verməyiblər. SİA xəbər verir ki, bunu quldur rejimin nəzarəti altında dərc edilən "Azat Artsax" qəzeti yazıb. Qeyd olunur ki, azərbaycanlı hərbçilər qadağanı səfərin onlarla razılaşdırılmadığı üçün tətbiq edildiyini qarşı tərəfə bildiriblər. "Ziyarətçilər geriyə "stepanakertə" dönməyə məcbur qalıblar", deyə separatçıların qəzetləri yazıb.



***Rövşən RƏSULOV***

# Hər bir insanın ümid, pənah ünvanı

*İnsanlara qayğı, ehtiram, həssas münasibət Heydər Əliyev Fondu ilə cəmiyyət arasında körpü salıb*

**Əhalinin sosial həyatının dəyişdirilməsi, onun rifahının təmin edilməsi, aztəminatlı təbəqələrə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması ölkəmizdə dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərlə yanaşı, onların zəruri tələbatlarının ödənilməsi üçün də dövlət büdcəsindən ayrılan vəsaitlərin miqdarı artırılıb.**

HEYDƏR ƏLİYEV FONDU

Dövlətin maraqları nəzərə alınaraq görülən bu işlərdə əsas məqsəd insanların gələcəyini təmin etməkdir. Bütün bunlarla yanaşı, əhalinin sağlamlığının təmini də görülən işlərin davamı olaraq həyata keçirilir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, eləcə də, Heydər Əliyev ideyalarını yaşadan və Onun adını daşıyan Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında həyatında həyata keçirilən davamlı tədbirlər bəhrəsin verir. Mövcud potensial, baza əsasında iş prinsiplərinə uyğun bir şəkildə fəaliyyət dairəsini genişləndirən Heydər Əliyev Fondu xüsusilə humanitar missiyada fəaliyyət proqramının həyata keçirməklə bütün yaş həddində olan vətəndaşdların qayğı və problemlərin təminatçısına çevrilib. Məlum olduğu kimi, fəaliyyətdə olduğu zaman məsafəsində ölkə ərazisində uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilib. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva Azərbaycanda əhalinin sağlamlığının qoruyucusuna çevrilib. Hər bir insanın ümid, pənahına çevrilib. Bu da əsassız deyil. İnsanlara qayğı, ehtiram, həssas münasibət Heydər Əliyev Fondu ilə cəmiyyət arasında bir körpü salıb. Minlərlə insanın qəlbində bir ümid çırağı yandırılıb. Ümidlər boşa çıxmır. Mehriban xanım Əliyevanın mərhəməti, xeyriyyəçiliyi, humanizmi bu münasibətin formalaşmasına səbəb olub.

Fondun əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması, vətəndaşlarımızın ölkədə və xaricdə müalicəsinə kömək məqsədi ilə həyata keçirdiyi irimiqyaslı proqram layihələri nəticəsini göstərməkdədir. Bu gün ölkəmizdə Fondun humanitar yardımı çərçivəsində əldə etdiyi böyrək hemodializ aparatları ilə bir sıra tibb müəssisələrini təmin etmişdir. Tibbi avadanlıqlar Almaniyanın “Fresenius Medical Care” şirkəti tərəfindən Heydər Əliyev Fonduna bağışlanan humanitar yardımdır. “Fresenius Medical Care” şirkəti ilə 2006-cı ildən başlanan əməkdaşlığın uğuru bahalı hemodializ aparatlarının hədiyyə olunmasına gətirib çıxarmışdır. Bununla yanaşı, Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu tibb şirkətləri ilə beynəlxalq əməkdaşlığı çərçivəsində Fonda xeyli tibbi avadanlıq daxil olunmuşdur. Bunun sayəsində daha çox xəstə dövlət tərəfindən hemodializlə təmin olunur. Artıq regionlardakı müalicə ocaqlarında da belə aparatlar quraşdırılmışdır.

### “DİABETLİ UŞAQLARA ƏN YÜKSƏK QAYĞI” LAYİHƏSİ DAVAMLIDIR

Heydər Əliyev Fondunun genişmiqyaslı layihələrini davamı olaraq səhiyyə sahəsində humanitar aksiyaları davamlı xarakter alır. Fransanın ən güclü əczaçılıq qrupu olan “Servyer” şirkəti ilə birgə diabetli insanın müalicəsini dərmanla təmin etmişdir. Onlardan biri “Diabetli uşaqlara ən yüksək qayğı” layihəsidir. Fondda layihənin təqdimatından sonra ictimaiyyətin, yerli və xarici təşkilatların diqqəti ölkəmizdə diabetli uşaqların probleminə cəlb edilmiş, bu xəstəliyə tutulmuş 14 yaşadək 310 uşağın dərmanlarla təmin olunmasındakı çətinliklər aradan qaldırılmışdır. Bu iş davam etdirilir, diabetdən əziyyət çəkən uşaqlar və böyüklər insulin, digər dərmanlar və qlükometr sarıdan korluq çəkmirlər. Azərbaycanda ilk dəfə uşaqlar insulin üçün şpris qələmlərlə Heydər Əliyev Fondu tərəfindən təmin olunublar. Artıq Heydər Əliyev Fondunun “Diabetli uşaqlara ən yüksək qayğı” layihəsi çərçivəsində ölkə üzrəşəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları vəşpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsiləşəkərli diabet xəstələrinə verilir.

Bu gün ölkəmizdə uşaqların ən keyfiyyətli “Tresiba” insulini ilə təmin olunması çox böyük əhəmiyyət kəsb edir. Bu layihə çərçivəsində son bir il ərzində 1500-ə yaxın uşağın həyat keyfiyyəti yaxşılaşdı. Uşaqların “Tresiba” insulini ilə təminatı Heydər Əliyev Fondunun uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir.

### SƏHİYYƏ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR FONDUN ƏHALİNİN SAĞLAMLIĞINA VERDİYİ TÖHFƏLƏRDİR

Fondun dəstəyi ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixonevroloji mərkəz istifadəyə verilmişdir. Beynəlxalq əməkdaşlıq çərçivəsində dünyanın tanınmış şirkətləri tərəfindən fonda təqdim olunmuş hemodializ və endoskopik aparatlar hazırda müvafiq tibb müəssisələrində uğurla tətbiq olunur.

Fondun təşəbbüsü ilə paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərindəəməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. İndiyə qədər 35 mindən çox insan yerli klinikalarda müalicə edilib, 8 minə yaxın xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyəəməliyyatı olunub, onların bir qismi müayinə vəəməliyyat üçün xarici ölkələrə göndərilib.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Belə ki, fond tərəfindən 2006-cı ildə Türkan qəsəbəsində poliklinikanın və təcili tibbi yardım stansiyasının inşası, Şüvəlan qəsəbəsində 31 nömrəli BirləşmişŞəhər Xəstəxanasının əsaslı təmiri, Ucar rayonunun Qazıqumlaq kəndində Akademik ZərifəƏliyeva adına Xəstəxananın əsaslı bərpası, Zirə Müalicə Diaqnostika Mərkəzinin yenidən qurulması, Qala qəsəbəsində ilk xəstəxananın - 29 nömrəli BirləşmişŞəhər Xəstəxanasının filialının inşası, Bakıda Psixonevroloji Uşaq Mərkəzinin inşası, “Təbəssüm” uşaq sanatoriyasının əsaslı təmiri və yenidən qurulması, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzinin inşası və s. həyata keçirilmişdir

Onu da bildirək ki, səhiyyə yönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün həmin xəstəliyə düçar olanların ümid yerinə çevrilən mərkəz Heydər Əliyev Fondunun “Talassemiyasız həyat naminə” proqramı çərçivəsində inşa olunub. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır.

Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında artıq bir neçə lokal layihə həyata keçirilmişdir. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Ceyhun Bayramov: “Bölgədə kommunikasiya xətlərinin açılışı münasibətlərin normallaşmasına xidmət edəcək”



Üçtərəfli bəyanatlara əsasən bölgədə nəqliyyat və kommunikasiya xətlərinin açılışı, habelə yeni nəqliyyat dəhlizinin çəkilişi bölgədə tərəqqinin təmin edilməsi və insanlar arasında münasibətlərin normallaşmasına xidmət edəcək. Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyanın dövlət naziri Vendi Mortonla görüşü zamanı bildirib.

Nazir deyib ki, Ermənistanda bəzi insanlar tərəfindən sərgilənən neqativ ritorika heç də münasibətlərin normallaşmasına xidmət etmir, əksinə xalqlar arası ədavətin dərinləşdirilməsi məqsədi güdür.

C. Bayramov Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdiyini, BMT TŞ-nin məlum qətnamələrinin icrasını təmin etdiyini vurğulayıb. O əlavə edib ki, mövcud olan yeni reallıq hər kəs tərəfindən qəbul olunmalıdır: “Bu xüsusda, Azərbaycanın ərazilərinə rəsmi Bakının icazəsi olmadan edilən hər hansı səfər qanunsuz xarakter daşıyır və buna münasibətdə müvafiq tədbirlər həyata keçirilir”.

## Serbiya Azərbaycan ilə strateji tərəfdaşlıqdan qürur duyur

Serbiyanın xarici işlər naziri Nikola Selakoviç Azərbaycanın bu ölkədəki müvəqqəti işlər vəkili Elnur Quliyevi qəbul edib. AZƏRTAC xəbər verir ki, Serbiya XİN-in rəsmi saytında görüş barədə məlumat yerləşdirilib. Materialda bildirilir ki, görüşdə nazir Selakoviç ikitərəfli əməkdaşlığın ənənəvi dostluq səviyyəsində olduğunu və Serbiya Prezidenti Aleksandr Vuçiçlə Azərbaycan Prezidenti İlham Əliyev arasındakı səmimi münasibətin buna şərait yaratdığını bəyan edib. Selakoviç Serbiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə hörmət baxımından qarşılıqlı anlaşmaya əsaslandığını və bu səbəbdən həmin tərəfdaşlığa görə qürur duymasını vurğulayıb.



Serbiyanın BMT-yə üzv olan bütün dövlətlərin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayan nazir qeyd edib ki, onun ölkəsi münaqişələrin sülh yolu ilə həllinə tərəfdardır.

Selakoviç bəyan edib ki, Serbiya Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin Qarabağda atəşkəs barədə 10 noyabr tarixli birgə Bəyanatını dəstəkləyir. Serbiya diplomatiyasının başçısı yüksək səviyyədə siyasi dialoqun fəallaşdırılması barədə də söhbət açıb. Nazir azərbaycanlı sahibkarları Serbiya iqtisadiyyatına sərmayə yatırmağa çağırıb.

## Milli Məclis bu dəfə ekoloji vəziyyətlə bağlı toplanır



Milli Məclisdə azad edilmiş ərazilərdə ekoloji vəziyyətlə bağlı iclas keçiriləcək. SİA-nın məlumatına görə, fevralın 10-da keçiriləcək iclasda işğaldan azad olunmuş ərazilərdəki ekoloji vəziyyət, həmin ərazilərin inkişafı və görüləcək işlər müzakirə ediləcək. İclas parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təşkilatçılığı ilə baş tutacaq.

# Nəqşicahan - Azərbaycanın Şərqə açılan qapısı

*Nəqşicahan- Azərbaycanın Şərqə açılan qapısı, müasirliklə qədimliyin vəhdətində böyüdükcə gözəlləşən şəhər*

## 9 fevral 1924-ci ildə muxtariyyət verilən Naxçıvan inkişafının intibah dövrünü yaşayır




Tarixi İpək Yolunun üzərində yerləşən, xalqımıza məxsus milli-mənəvi, zəngin təbii sərvətləri ilə məşhur olan, ilk yaşayış məskənlərindən sayılan Naxçıvan tarixi şəxsiyyətləri, elm xadimləri, sənətkarları ilə də tanınır. Bu torpağın yetirməsi, dünya siyasətçiləri arasında müdrikliyi, uzaqgörənliyi ilə seçilən ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir: "Orta əsrlərdə Şərqin iri elm , mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Naxçıvanlıların öz fədakarlığı , işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir."

Təbii sərvətləri, yerləşdiyi əlverişli coğrafi mövqeyi ilə yadellilərin diqqətini çəkən Naxçıvana sahib çıxmaq istəyənlər bu torpağın igid oğulları qarşısında təslim olmuş, bəd niyyətlərinə nail ola bilməmişlər.

SSRİ-nin cənub sərhədi sayılan Naxçıvan Azərbaycanın Şərqə açılan qapısı kimi mühüm əhəmiyyət daşıyıb. Azərbaycan xalqını parçalayan Gülüstan, Türkmənçay müqavilələrindən fərqli olaraq Qars, Moskva müqaviləsi ilə Türkiyəyə bağlanan Naxçıvanla eyni kökə, adət-ənənələrə malik qardaş ölkə ilə əsrlərdən bəri davam edən əlaqələr daha da möhkəmlənmişdir.

Sovet hakimiyyəti dövründə Naxçıvanla bağlı münasibətlər birmənalı olmamışdır. Daşnakların təzyiqi ilə Naxçıvanın Ermənistana birləşdirilməsi xəbərindən narahat olan Mustafa Kamal Atatürk 1921-ci ildə Rusiya ilə Naxçıvan problemi ətrafında danışıqların aparılmasına nail olmuşdur. Bu münasibətlə Rusiyaya göndərilən nümayəndə heyətinə tapşırığı belə olmuşdur: " Naxçıvan türk qapısıdır. Bu xüsusi nəzəri -etibara alaraq əlinizdən gələni yapınız." İmzalanmış Moskva anlaşmasında Naxçıvanın Azərbaycanın tərkibində qalmasına ilkin razılıq əldə olunur. Türkiyənin Qars şəhərində imzalanmış müqavilədə Moskvada əldə olunmuş razılıq təsdiqlənmiş və daha da möhkəmləndirilmişdir. Qars müqaviləsini imzalayan Türkiyə, Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan Naxçıvanın Azərbaycan Respublikasının tərkibində qalmasının zəruriliyini vacib hesab etmişlər. Beləliklə, 9 fevral 1924-cü ildə Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası təşkil olunmuşdur. Bu isə müstəqilliyə aparan tarixi nailiyyətlərdən biridir.

1990-cı ildə Naxçıvana dönüşü ilə ata-baba torpağının erməni işğalından qorunması üçün uzaqgörən siyasətinə və xalqla birliyinə arxalanaraq əsl vətəndaş fədakarlığı göstərən ulu öndər Heydər Əliyevin Muxtar Respublika Ali Məclisinin Sədri kimi müstəqilliyimizin əbədiliyi naminə həyata keçirdiyi islahatların hər biri gələcəyə hesablanmış tarixi missiyalardır. 17 noyabr 1990- cı ildə keçirilən Naxçıvan MR Ali Məclisinin növbəti sessiyasına deputat kimi sədrlik edən Heydər Əliyev "Naxçıvan MSSR"-nin adının dəyişdirilməsi, dövlət atributları sayılan Azərbaycan Respublikası Cümhuriyyətinin üçrəngli bayrağının, himn və gerbinin bərpası barədə qərarın qəbuluna nail olmaqla, muxtar respublikanın Ermənistanın işğalından xilası naminə tarixi addımlar atdı. Naxçıvanda olarkən bütün Azərbaycan üçün gördüyü xidmətlərdən biri də respublikanın sərhədlərinin , Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi idi. 1992-ci ildə Qars müqaviləsinin təzələnməsini tarixi hadisə adlandıran, xəyanətkar, siyasi, tarixi baxışları ilə Azərbaycanın varlığına ağır zərbələr vuran AXC-Müsavat iqtidarında təmsil olunan səritəsizlərin Naxçıvanın muxtariyyatının ləğvi ilə bağlı sərsəmləmələrinə etirazını "Mən ilk dəfə bununla 1992-ci ildə Naxçıvanda işləyərkən rastlaşdım. O vaxta qədər mən təsəvvür edə bilməzdim ki, hansısa bir azərbaycanlı Naxçıvanın muxtariyyatına müxalif çıxsın" sözləri ilə bildirən ulu öndər Heydər Əliyev 1924-cü ildə əldə edilmiş o nailiyyəti tarixi hadisə adlandırmışdır: "İndi görürsünüz, tarixi- nöqteyi nəzərdən çox ağır, gərgin bir dövrdə Azərbaycan torpaqlarını qoruyub saxlamaq, Zəngəzur Ermənistana verilən sonra Naxçıvanı Azərbaycanın ayrılmaz bir hissəsi kimi saxlamaq üçün böyük nailiyyət əldə edilmiş, Naxçıvana muxtariyyət verilmişdir. Amma bu gün xalq, millət, dövlət qarşısında heç bir xidməti, heç bir səriştəsi olmayan cılız insanlar durub Naxçıvanın muxtariyyətinin əleyhinə çıxırlar. Hansı mənəvi haqla? Hansı hüquqla?." Ümummilli lider Heydər Əliyev iki qardaş xalq arasındakı münasibətlərin əbədiliyini "Bir millət , iki dövlət" sözləri ilə təsdiqlədi. "Naxçıvanın muxtariyyatı tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyatı Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq" söyləyən ulu öndər Heydər Əliyevin muxtar respublikadakı fəaliyyətini, xidmətlərini Azərbaycanın müstəqilliyinin qorunmasına yönəlmiş önəmli dövr adlandıran Prezident İlham Əliyevin bildirdiyi kimi, Ulu Öndər Naxçıvana diqqətlə yanaşırdı: "Ona görə yox ki, burada anadan olmuşdu, bura onun Vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü."

Ötən əsrin sonlarında Ermənistan tərəfindən blokadaya alınan Naxçıvana Ulu Öndərin şəxsi nüfuzu sayəsində qardaş Türkiyə və İrandan verilən enerji, göndərilən ərzaq və sənaye məhsulları hesabına çətin vəziyyətdən çıxan naxçıvanlılar Türkiyə ilə Naxçıvanı birləşdirən "Ümid" körpüsü vasitəsilə qardaş ölkəyə gediş- gəliş imkanı qazandılar . Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik Naxçıvan hava limanı, Bakıda isə muxtar respublikanın nümayəndəliyi açıldı.

"Naxçıvan qədim Azərbaycan diyarıdır, qədim tarixə, mədəniyyət malik olan diyardır, eyni zamanda müasir şəhərdir... Naxçıvan muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verib" söyləyən Prezident İlham Əliyevin bu qədim diyara göstərdiyi diqqət və qayğı sayəsində muxtar respublika gündən-günə çiçəkləndi, inkişaf etdi. Bütün sahələri əhatə edən quruculuq, abadlıq işləri sayəsində müasirliklə qədimliyin vəhdətində böyüyən, böyüdükcə gözəlləşən Naxçıvan intibah dövrünü yaşayır. Ulu Öndərin yetirməsi, Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun Vətənə, torpağa bağlılığı, ən əsası isə fədakarlığı nəticəsində Naxçıvan Avropa şəhərləri ilə müqayisə oluna biləcək səviyyədə modernləşib. Tarixi abidələri, müalicəvi əhəmiyyətli suları, buz bulaqları, meşələri, təmiz havası ilə qonaqları valeh edən muxtar respublika füsünkarlığı ilə göz oxşayır. Memarlıq abidələri olan Möminə xatın, Qarabağlar, Yusif ibn- Küseyir türbələrində, "Əshabul-Kəhf" ziyarətgahında aparılan təmir bərpa işləri, Nuh peyğəmbərin qəbrinin üstündə ucaldılan abidə mənəvi irsimizə sahiblik nümunəsidir. C.Məmmədquluzadənin M.S.Ordubadinin, Y. Məmmədəliyevin ev muzeyləri tanınmış şəxsiyyətlərə ümumxalq hörmətidir. Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Görüşünün Şərq aləmində tanınan muxtar respublikada keçirilməsi, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan olunması dünya sivilizasiyasına önəmli töhfələr vermiş, memarlıq abidələri bir çox ölkələri bəzəyən Əcəmi sənətinə dəyərdir.

Naxçıvan iqtisadiyyatının ildənilə diqqəti cəlb edən səviyyədə inkişaf etməsi muxtar respublika rəhbərliyinin fədakarlığının, görülən işə məsuliyyətlə yanaşmanın məntiqi nəticəsidir. Təbii sərvətlərdən səmərəli istifadə ilə aparılan tikinti, quruculuq işləri bu qədim diyara özgə görkəm verir. Abadlıq işlərində yerli məhsullardan istifadə olunur. Yaradılan yeni sənaye müəssisələri, sosial obyektlər, özəl şirkətlər hesabına işsizlik minimuma endirilib. İstehsal prosesi ən müasir texnologiyalar əsasında təkmilləşən "Badamlı", "Sirab" mineral sular zavodlarının məhsulları MDB ölkələrinə ixrac olunur. "Duzdağ"" fizioterapiya mərkəzinin xidmətindən istifadə edən xəstələr burada yaradılan şəraitdən razılıq edirlər. Sistemli və konseptual proqramlar əsasında tətbiq olunan yeniliklər muxtar respublika sakinləri tərəfindən razılıqla qarşılanır.

Ölkəmizdə insanların məşğulluğu ilə bağlı həyata keçirilən tədbirlər, yeni iş yerlərinin yaradılması dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını təsdiqləyir. Məşğulluğun yüksək səviyyədə həlli üçün yeni yollardan, ehtiyat mənbələrindən istifadə olunur. Naxçıvan Muxtar Respublikasında da sosialyönümlü iqtisadi inkişafın təmin olunması ilə bağlı həyata keçirilən tədbirlər içərisində əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər mühüm yer tutur. Səmərəli məşğulluğun inkişafına yönəldilən siyasi, iqtisadi, sosial və institusional mühitin yaradılması əsasında məşğulluq sahəsində prioritet istiqamətlərin öyrənilməsi əhalinin rifahının yüksəldilməsində mütərəqqi əhəmiyyətə malikdir. Əhalinin sosial həyat tərzinin yaxşılaşdırılmasında önəmli yeri olan məşğulluq siyasətinin həyata keçirilməsi və uğurla nəticələnməsi muxtar respublika rəhbərliyinin daim diqqətdə saxladığı mühüm sosial məsələdir. Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə aparılan islahatlar nəticəsində müxtəlif kateqoriyalara məxsus insanlar iş yerləri ilə təmin olunurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı""nın icrası isə görülən işlər uğurla nəticələnmişdir. Proqramın tətbiqi ilə muxtar respublikada 12 min 479 yeni iş yeri açılmış, əmək resursları əhalinin istəklərinə və daxili bazarın tələbinə uyğunlaşdırılmış, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbat sorğulara əsasən müəyyənləşdirilmiş və həllini tapmışdır. 2016-2020-ci illərdə məşğulluq orqanları tərəfindən, əsasən gənclər olmaqla 14 min 699 nəfər vakant iş yerlərinə göndərilmişdir. Kəndlər də daxil olmaqla keçirilən əmək yarmarkalarına müraciət edənlərin əksəriyyətinin istəkləri yerinə yetirilmişdir.

Aktiv məşğulluq tədbirləri nəticəsində yeni iş yerlərinin yaradılması məqsədilə sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi xüsusi önəm daşıyır. 2016-2020-ci illərdə kiçik və orta sahibkarlığın inkişafı məqsədilə irəli sürülən layihələrin, təkliflərin reallaşmasına lazımi səviyyədə maliyyə dəstəyi göstərilmiş, yeni işə başlamaq istəyənlər üçün müvafiq kurslar təşkil edilmişdir.

"Naxçıvan Biznes Mərkəzi"" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən sahibkarlığa yeni başlamaq istəyənlər üçün kurslar, seminarlar, təlimlər təşkil edilmiş, fərdi qaydalara uyğun məsləhətlər aparılmışdır. Məşğulluq xidməti orqanlarının əməkdaşları tərəfindən ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan şagirdlərə əmək bazarının tələbinə uyğun ixtisaslar barədə məlumatlar verilmişdir.. Həyata keçirilən bütün islahatların təməlində isə Prezident İlham Əliyevin daimi tövsiyəsi olan insana diqqət və qayğı amili dayanır. Gənclərin peşə təhsilinə diqqət artırıldığı kimi evdar qadınların məşğulluqla təmin olunmasına da diqqət artırılır. Beləliklə, ailə büdcəsinin bazarın təklif və tələbatına uyğunlaşdırılması kimi günün aktual məsələsi olan problemlər vaxtında həllini tapır.

İcrası uğurla həyata keçirilən Dövlət proqramlarının məntiqi davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı""nın təsdiqi həyata keçirilən tədbirlərin davamlılığını təmin edəcəkdir". Bu əminlik onun nəticəsidir ki, son illərdə muxtar respublikada irimiqyaslı və hərtərəfli iqtisadi islahatlar uğurla reallaşdırılmış, həyata keçirilən davamlı tədbirlər sayəsində əlverişli biznes və investisiya mühiti formalaşdırılmışdır. Müasir zəmanəmizin bütün çağırışlarına tam cavab verən çoxşaxəli sənayenin dinamik inkişafında xüsusi önəm daşıyan yeni müəssisələr fəaliyyətə başlamışdır. Sevindirici haldır ki, daxili bazarın tələbatını ödəmək qabiliyyətində olan, ixracyönümlü məhsul istehsal edən müəssisələr çoxluq təşkil edir. Sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizmlərinin və təşviq alətlərinin tətbiqi, sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının sadələşdirilməsi özəl bölmənin inkişafını stimullaşdırmaqla yanaşı, istehsal prosesi zamanı sərf olunan vəsaitlərin azalmasına imkan yaradır. Bu da, öz növbəsində, məhsulun maya dəyərinin aşağı düşməsini təmin edir, rəqabətqabiliyyətliliyi yüksəldir.

Muxtar respublikada aqrar sahənin inkişafına göstərilən diqqətin nəticəsidir ki, əhalinin kənd təsərrüfatı məhsullarına tələbatı daxili imkanlar hesabına ödənilir. Süd məhsullarının istehsalı və qablaşdırılması, quşçuluq, arıçılıq, bağçılıq, əkinçilik inkişaf edir. Fermerlərin tələbatdan artıq istehsal etdikləri kənd təsərrüfatı məhsullarının uzun müddət saxlanılması üçün soyuducu anbarların, əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixanaların yaradılması nəticəsində əhali bütün mövsümlərdə keyfiyyətli ərzaq məhsulları ilə təmin olunur.

Sadalananlar muxtar respublikanın bugünkü iqtisadi inkişafına xronoloji, qısa nəzərdir. Naxçıvanın sabahı daha gözəl olacaqdır. Bunun üçün etibarlı təminat vardır. 44 günlük Vətən müharibəsinin bitməsi ilə əlaqədar ötən ilin noyabr ayının 10-da imzalanan üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın Qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunur. Yaranacaq dəhlizdən region dövlətlərinin istifadəsi üçün zəmin yaranır. Ən əsası isə Azərbaycanın Türkiyə ilə birbaşa əlaqəsi yaranır. Həmin dəhlizin bərpası ilə region dövlətləri olan Azərbaycanın, Türkiyənin, Rusiyanın, İranın, istəsə Ermənistanın birgə istifadəsi bölgədə yeni reallıq və iqtisadi əməkdaşlıq üçün sağlam mühit formalaşdırılır. Yaradılacaq bu şərait ilk növbədə muxtar respublikanın iqtisadi, sosial inkişafı üçün şaxələnmiş, etibarlı təminatdır.

***Xuraman İsmayılqızı***

# "Azərbaycan lider ölkələr sırasındadır"

**"Hazırda dünyada 107 milyon insan koronavirusa yoluxub, 2.3 milyon insan isə bu virusun qurbanı olub. Dünyada koronavirusa yoluxanların sayına görə ilk beşlikdə ABŞ, Hindistan, Braziliya, Rusiya və Böyük Britaniya yer alır. Bu beş ölkədə virusa yoluxanların ümumi sayı dünya üzrə xəstələrin sayının təxminən 50 faizini təşkil edir.**



Avropada da, xüsusən Böyük Britaniyada, Fransada, İtaliyada, İspaniyada, Almaniyada yoluxma halları və ölüm faktları artan xətt üzrə inkişaf edir. Adları çəkilən 5 ölkədə ümumilikdə yoluxanların sayı 15 milyon, ölənlərin sayı isə 400 min nəfərdən çoxdur. Əlbəttə ki, son vaxtlar koronavirusa yoluxma tendensiyasının sürətlənməsi Cənubi Qafqaz regionundan da yan keçməyib". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, bu gün Ermənistanda 170 min, Gürcüstanda 262 min, Azərbaycanda isə 231 min insan virusa yoluxub: "Ölənlərinə sayına gəlincə Azərbaycanda 3156, Ermənistanda 3117, Gürcüstanda isə 3283 nəfərdir. Baxmayaraq ki, Azərbaycan əhalisinin sayı digər iki ölkənin əhalisinin sayının ümumi cəmindən 2 dəfə çoxdur, ölkəmizdə yoluxanların və ölənlərin sayı nisbətən aşağıdır. Lakin buna rəğmən biz virusun yayılmasının qarşısını almaq üçün mütləq yoluxmanı və ölüm sayını maksimum azaltmalıyıq. Məsələn, bir gündə Azərbaycanda 150-160, Ermənistanda 190-200, Gürcüstanda isə 690-700 nəfərdir. Amma bütün bunlara baxmayaraq, bu statistika da onu göstərir ki, Azərbaycan COVİD-19 ilə mübarizədə böyük uğurlar əldə edir. Bu baxımdan da Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizə sahəsində atılan addımlar və əldə olunan nəticələr ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanır. 47 ölkədən 44 mindən artıq insan arasında sorğu keçirmiş nüfuzlu "Gallup International" təşkilatı da vətəndaşların onların təhlükəsizliyi və sağlamlığı istiqamətində görülən kompleks tədbirləri yüksək qiymətləndirdiyini təsdiq edib. Təsadüfi deyil ki, vətəndaşların hökumətin pandemiya ilə mübarizəsindən razılıq səviyyəsinə görə Azərbaycan lider ölkələr sırasındadır".

Sədaqət Vəliyeva əlavə edib ki, pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək istədiyinə nail olub: " 40 min çarpayı potensialı olan xəstəxanalar hazır vəziyyətə gətirildi, 13 modul tipli xəstəxana inşa edildi, gündə 20 min test keçirilə bilən 42 müasir laboratoriya fəaliyyətə başladı. Bu günə qədər 2.5 milyondan çox test keçirilib. Halbuki, bu göstərici Gürcüstanda 2.2 milyon, Ermənistanda isə 654 mindir".

"Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verən ölkə də Azərbaycan olub" - deyən Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, Azərbaycan 4 milyon doz Çin istehsalı olan vaksinin gətirilməsini təmin edib: "Təsəvvür edin ki, bu gün dünyada onlarla dövlət var ki, hələ də vaksin ala bilməyib. Lakin Azərbaycan Avropa İttifaqından cəmi 1 ay sonra vaksinasiya işlərinə başladı. Azərbaycan COVAKS təşəbbüsünün üzvü kimi bir neçə vaksin istehsal edən şirkətlə müqavilə imzalayıb və bununla da ölkəyə müxtəlif vaksinlərin gətirilməsi də təmin ediləcək".

Sədaqət Vəliyeva onu da vurğulayıb ki, COVID-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tərəfindən koronavirusa qarşı regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılırdı: "Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşlərinin keçirilməsi bunun əyani sübutu idi. Elə dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi - COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsi də Prezident İlham Əliyevin təşəbbüsü ilə baş tutdu. Bütün bunlarla yanaşı, bu gün dünyada vaksin məsələsi ətrafında mübarizə gedir. İnkişaf etmiş ölkələr ədalətsizlik nümayiş etdirməklə kasıb dövlətləri ümumiyyətlə nəzərə almırlar. Məsələn, hazırda Kanada əhalisinin 400 faizi, Böyük Britaniya əhalisinin 295 faizi, Avstraliya əhalisinin isə 269 faizi üçün vaksin ehtiyatı alıb. Eyni zamanda, İsraildə hər 100 nəfərdən 59 nəfər, BƏƏ-də 35, Böyük Britaniyada 14, Bəhreyn və ABŞ-da 10 vaksinasiya olunub. Almaniya, Fransa kimi ölkələrdə isə bu rəqəm 3-dür. Bu günə qədər dünya vaksinlərinin 53 faizini sifariş ediblər. ABŞ istehsalı olan "Moderna" vaksininin 98 faizini, Avropa vaksini "Pfizer"in isə 96 faizini zəngin ölkələr sifariş ediblər.Dünyanın belə bir çətin zamanında belə bir ayrı-seçkilik, ədalətsizlik heç də yaxşı gələcək vəd etmir. Hələ Prezident İlham Əliyev bir müddət əvvəl BMT-nin Baş Assambleyasındakı çıxışında da peyvəndlərin ədalətli bölgüsünün vacibliyini diqqətə çatdırmış, zəngin ölkələrin kasıb dövlətlərin vətəndaşları üçün peyvəndlər almasını təklif etmişdi. Təəssüf ki, ölkəmizin vaksinasiya mövzusunda təklif etdiyi humanist ideyaları ilə bir çox inkişaf etmiş ölkələrin ədalətsiz və eqoist yanaşması kontrast təşkil edir. Bu mənada təsadüfi deyil ki, Prezident İlham Əliyev haqlı olaraq dünyanın üz-üzə qaldığı "ədalətsiz vaksin bölgüsü"nü qabardaraq özlərini demokratiyanın beşiyi hesab edən dövlətlərin gerçək mahiyyətini üzə çıxardı. Prezident İlham Əliyevin səsləndirdiyi faktlar da təsdiqləyir ki, artıq dünyanın inkişaf etmiş ölkələri bu mövzuda açıq şəkildə ədalətsizlik nümayiş etdirirlər".

# Kimlər işsizlikdən sığorta ödənişini almaq hüququna malikdirlər?




"Sığorta ödənişinin verilməsi Qaydası"nda dəyişiklik olunub. "İki sahil" xəbər verir ki, Nazirlər Kabinetinin 31 № li Qərarına dair izahında qeyd edilənlərə görə, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliyə əsasən dövlət orqanı və ya hüquqi şəxs ləğv edildikdə, işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatları ixtisar olunduqda, əmək müqaviləsinin müddəti bitdikdə işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar işsizlikdən sığorta ödənişini almaq hüququna malikdirlər.

Buna əsasən "Sığorta ödənişinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarında dəyişikliklər olunub.

# Türkiyə azərbaycanlı şəhid övladlarına təhsil təqaüdü ayıracaq



Türkiyənin Xaricdəki Türklərlə və Yaxın İcmalarla İş İdarəsi Ermənistanla döyüş əməliyyatların nəticəsində şəhid olmuş azərbaycanlıların övladları üçün özəl təqaüdlər təklif edib. Trend-in məlumatına görə, bu barədə Türkiyə mətbuatı yazır. İdarənin rəhbəri Abdulla Eren bildirib ki, Türkiyə şəhid övladlarına təhsil verməkistəyir. Bunun üçün Xaricdəki Türklərlə və Yaxın İcmalarla İş İdarəsi Türkiyədə araşdırma və dil tədrisi məqsədilə bu kateqoriyadan olan tələbə və aspirantlara xüsusi imkanlar təqdim edəcək: "Bütün sahələrdə olduğu kimi Türkiyə təhsil sahəsində də azərbaycanlı qardaşlarını dəstəkləyir".

# "Bu rayonlarda ilk "ASAN xidmət" mərkəzləri inşa olunur"




"Hazırda 20 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir". Bunu SİA-ya açıqlamasında "ASAN xidmət"in mətbuat katibi Elnur Niftəliyev deyib

Onun sözlərinə görə, 2021-ci ildə Bakıda daha 2 "ASAN xidmət" və 1 "ASAN Kommunal" mərkəzinin açılışı planlaşdırılır: "Həmçinin Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 300-dən çox xidmət göstərilir.

"ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7.281.000 unikal vətəndaşın 41 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 % təşkil edir".

***Ceyhun Rasimoğlu***

# 4 hərbi qulluqçumuz mina partlaması nəticəsində xəsarət alıb




Azərbaycan Ordusunun 4 hərbi qulluqçusu mina partlaması nəticəsində xəsarət alıb. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, fevralın 8-dəTərtər rayonu istiqamətində mina partlaması nəticəsində Azərbaycan Ordusunun 4 hərbi qulluqçusu Duniyev Kamil Əlibala oğlu, Əhmədzadə Həsən Alik oğlu, Orucov Elşad Lətif oğlu, Ağayev Məhərrəm Oktay oğlu xəsarət alıb.

İlkin tibbi yardım göstərildikdən sonra yaralılar hospitala təxliyə edilib. Hazırda hərbi qulluqçular həkimlərin tam nəzarəti altındadır. Vəziyyətləri stabildir, həyatları üçün təhlükə yoxdur.

# Pensiyalar nə qədər artırılır?

"2020-ci il üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun şəkildə pensiyalar indeksləşdirilərək 11,4 faiz artırılır. Prensiyaların növbəti artımı ümumilikdə 1 milyon 140 min pensiyaçını və ya pensiyaçıların 93 fazini əhatə edir. Digər pensiyaçılar isə xüsusi şərtlər əsasında pensiya təyin olunmuş şəxslərdir. Artım 2021-ci ilin 1 yanvar tarixindən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək". Bunu SİA-ya açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili deyib.

R.Mehdili vurğulayıb ki, pensiyaların indeksasiya edilərək artırılması üçün il ərzində əlavə olaraq 441 milyon manat yönəldiləcək: "Fərdi hesabların sığorta hissəsindəki pensiya kapitalı da istehlak qiymətləri indeksinin 2020-ci il üzrə illik səviyyəsinə uyğun şəkildə indeksləşdirilərək yanvarın 1-dən 2,8 faiz artırılır. Bu da əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində iştirak edən şəxslərin mənafeyinə xidmət edir və onların fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay əmək haqlarından sosial sığorta ayrımları nəticəsində deyil, həmçinin hər il dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir".

# Böyük Britaniyanın dövlət naziri Vendi Morton Heydər Əliyev Mərkəzində olub





**Azərbaycanda səfərdə olan Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Morton fevralın 9-da Heydər Əliyev Mərkəzində olub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa Mərkəzin fəaliyyəti barədə məlumat verib.**

Qeyd edilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib. Bundan başqa, Mərkəz Azərbaycan xalqının tarixi, dili, mədəniyyəti və digər milli sərvətlərinin beynəlxalq arenada populyarlaşmasına və təbliğinə, elmin dəstəklənməsinə və inkişafına, təhsilə, mədəniyyətə, səhiyyəyə, idmana, ekologiyaya və iqtisadiyyatın müxtəlif sahələrinə xidmət edən layihələr həyata keçirir.

Diqqətə çatdırılıb ki, məşhur memar Zaha Hadidin layihəsi əsasında tikilmiş Mərkəz dünya memarlığı siyahısına daxil edilib. Burada, həmçinin yerli, regional və beynəlxalq səviyyədə müxtəlif rəsmi qəbullar, konfranslar və digər tədbirlər keçirilir.

Qonağa Mərkəzdəki Heydər Əliyev Muzeyinin fəaliyyəti barədə də məlumat verilib. Bildirilib ki, Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif məqamlarının əks olunduğu muzeydə ona aid fotoşəkillər, sənədlər və əşyalarla yanaşı, vaxtilə istifadəsində olan avtomobillər də saxlanılır.



Böyük Britaniyanın dövlət naziri Mərkəzdə nümayiş etdirilən "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub.

Diqqətə çatdırılıb ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Xanım Vendi Morton "Musiqi alətləri: birlik və müxtəliflik", "Kukla incəsənəti" sərgilərinə də baxıb. "Tarixin şah əsərləri" sərgisi ilə tanışlıq zamanı Azərbaycanın tarixini əks etdirən eksponatlar qonaqda xüsusi maraq doğurub. Böyük Britaniyanın dövlət naziri Vendi Morton müasir Bakının rəmzlərindən biri hesab olunan Heydər Əliyev Mərkəzindən xoş təəssüratlarla ayrılıb.




# Ərdoğan: "Azərbaycanın özü qərar verib Qarabağı geri aldı"

Otuz ildir ki, Azərbaycan torpağı Qarabağı işğal altında tutdunuz. O torpaqlar azərbaycanlı qardaşlarımızındır. Azərbaycanın özü qərar verib Qarabağı geri aldı və biz də əlimizdən gələn dəstəyi verdik. AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident Rəcəb Tayyib Ərdoğan Ankarada keçirilən Türkiyə Milli Kosmos Proqramının təqdimat mərasimindəki çıxışında deyib.

Türkiyənin kosmos və peyk texnologiyalarında böyük uğurlar qazandığını diqqətə çatdıran dövlət başçısı söyləyib ki, qardaş ölkənin milli istehsalı olan İHA (pilotsuz uçuş aparatları) və SİHA-lar ilə (pilotsuz silahlı uçuş aparatları) cəhbədə oyunları pozan tərəf olmağı bacardıq.



# Ermənistanın xarici borcu kəskin artıb

Ermənistanın daxili və xarici borcu 8,84% artıb. Azvision.az erməni KİV-lərinə istinadən xəbər verir ki, son bir il ərzində Ermənistan 647 milyon 230 min dollar borclanmaya gedib. Nəticədə dövlət borcu 7 milyard 968 milyon 486 min dollara çatıb.

# Roma Papası Qarabağdan danışıb



"Cənubi Qafqazdakı vəziyyəti xüsusi diqqətlə izləyirəm". Bunu Roma Papası Fransisk bu gün Vatikanda akkredite olunan diplomatik korpus rəhbərləri qarşısında nitqi zamanı vəziyyətin gərgin olduğu bölgələri sadalayarkən bildirib.

"Orada közərməyə davam edən bir neçə münaqişədən bəziləri son illərdə daha da alovlanaraq regiondakı sabitlik və təhlükəsizliyi təhdid edir", - katolik kilsəsinin rəhbəri qeyd edib. "Bizim dövrdə dinlərarası dialoq xalqlar və mədəniyyətlər arasındakı anlaşmanın mühüm parçasıdır", - Roma papası vurğulayıb.

# İtaliya Azərbaycan qazını Fransa və İsveçrəyə ixrac edib



Avropa enerji dünyasında görünməmiş bir hadisə qeydə alınıb. "Report"un İtaliya mətbuatına istinadən verdiyi məlumata görə, köhnə qitənin bütün ölkələrini birləşdirən boru kəməri şəbəkəsi inşa edildikdən sonra ilk dəfə olaraq İtaliya qonşu ölkələrdən birinə qaz ixrac edib. Bu, son iki həftəsonu baş verib. Belə ki, ilk dəfə yanvarın 23-ü və 24-də Fransaya 24 milyon kubmetr, ikinci halda isə yanvarın 30 və 31-də 12 milyon kubmetr təbii qaz nəql edilib. Bu dövrdə İsveçrəyə 4 milyon kubmetrə qədər həcmdə təbii qaz nəql edilib.

Məlumata görə, İtaliyanın Fransa və İsveçrəyə ixrac etdiyi təbii qaz Trans-Adriatik Qaz Boru Kəməri (TAP) ilə İtaliyaya tədarük edilən qaz həcmləridir.

Qeyd edək ki, TAP Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağından təbii qazı Avropaya daşıyır. 878 km-lik boru kəməri Türkiyə-Yunanıstan sərhədində, Kipoidə Trans Anadolu Boru Kəmərinə birləşir, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın cənub sahillərinə çatır.

# Rusiyaya pomidor və alma ixracının bərpası yerli bazarda qiymətlərə necə təsir edir?

***Azərbaycandan Rusiyaya ixrac olunan pomidor və alma məhsullarına tətbiq edilən məhdudiyyətlərin tamamilə aradan qaldırılması istiqamətində AQTA və aidiyyəti qurumlarla birgə müvafiq tədbirlərin davam etdirilməsi yerli bazara da öz təsirini göstərməkdədir. "İki sahil" Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazarına istinadən xəbər verir ki, əsasən pomidorun qiymətində artım olub.***



Belə ki, daha çox əhalinin üz tutduğu "8-ci kilometr" bazarında yanvarın ayının 4-dən fevralın 2-dək müddətdə "Bakı" pomidorunun 1 kiloqramının orta qiyməti 1 manat 10 qəpik olduğu halda, sonrakı müddətdə qiymət 1 manat 25 qəpiyə yüksəlib. Həmçinin "Zirə" pomidorunun orta qiyməti də həmin dövrdə 1 manat 25 qəpikdən 1 manat 40 qəpiyədək artıb. Bununla belə, "Çəhrayı", "Şəmkir" adı ilə tanınan pomidor növlərinin qiyməti dəyişməyib.

Almaya gəldikdə isə ilə orta qiyməti 2 manat 25 qəpiklə başlayan "Qızıl əhmədi" yanvarın 23-dən etibarən 2 manat 75 qəpiyə yüksəlib. Digər alma növlərində isə dəyişiklik qeydə alınmayıb.

AQTA tərəfindən fevralın 5-dək ölkə ərazisi üzrə fəaliyyət göstərən 275 pomidor, 37 alma istehsalı və ixracı ilə məşğul olan müəssisə haqqında zəruri məlumatlar rəsmi qaydada Rusiya Federasiyasının müvafiq qurumuna təqdim olunub. Təqdim olunan məlumatlar əsasında, bu günədək 51 pomidor və 37 alma istehsalı müəssisəsinə məhsulların ixracı üçün icazə verilib.

# Neft niyə bahalaşdı?

Neftin bir bareli qlobal pandemiya elan ediləndən sonra ilk dəfə olaraq 60 dollardan baha satılır. "İki sahil" xəbər verir ki, bunu Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov deyib. Onun sözlərinə görə, OPEK+ ölkələrinin öhdəliklərə əməl etməsi, Səudiyyə Ərəbistanının gözlənildiyindən daha çox hasilat azalmasına getməsi qlobal neft təklifini azaldıb: "Bu isə bazardakı tarazlığa təsir göstərərək qiymətin artmasına səbəb olub. Digər tərəfdən, vaksinasiya səviyyəsinin yüksəlməsi pandemiyanın miqyasının minimumlaşacağı ilə bağlı ümidlər yaradıb. Bu isə investorların neft bazarına marağını artırıb. Pandemiyanın lokallaşdırılması yenidən real sektorun canlanmasına və neftə tələbin artmasına səbəb ola bilər. ABŞ-dakı sonuncu dəstək paketi də ən böyük neft istehlakçısı olan Birləşmiş Ştatlarda iqtisadi canlanma ilə bağlı proqnozları gücləndirib və bu da neft bazarına təsirsiz ötüşməyib".

Deputat bildirib ki, gündəlik neft ixracatı 688,8 min barrel təşkil edən Azərbaycan üçün neftin dünya bazar qiymətinin yüksəlməsi ölkəyə daxil olan valyutanın həcminin artması baxımından arzuolunandır: "2021-ci ilin dövlət büdcəsində 1 barel neftin qiymətinin 35 dollar müəyyənləşdirildiyini nəzərə alsaq, neftin illik orta qiyməti yüksək olarsa, Dövlət Neft Fonduna daxil olmalar artacaq və valyuta ehtiyatlarımız çoxalacaq. Bu baxımdan, neft bazarındakı son tendensiya bütövlükdə neft ölkələri üçün arzuolunan dəyişiklikdir. Bununla yanaşı, OPEK+ anlaşmasına rəğmən neftin qiymətinin 2021-ci ildə necə dəyişməsi birbaşa pandemiyanın miqyasından asılı olacaq".

# Diplomatların işğaldan azad olunmuş ərazilərə səfərləri...

## *Məqsəd həmin ərazilərdə erməni vandallığını xarici diplomatlara əyani şəkildə göstərməkdir*

**Məlum olduğu kimi, Azərbaycanda fəaliyyət göstərən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri fevralın 6-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər edib.**

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev səfərin məqsədi ilə bağlı qeyd edib ki, Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycanda akkreditə olunmuş səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların rəhbərləri ilə birlikdə işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan bölgələrini ziyarət etmək üçün yola çıxıblar. Onlar ermənilər tərəfindən dağıdılmış qəbiristanlığa baş çəkiblər.

Qeyd edək ki, artıq belə səfərlər neçənci dəfədir ki, təşkil olunur. Dəfələrlə erməni vandalizminin törətdiyi vəhşiliklər diplomatları dəhşətə gətirib və onların heç bir dəyərə hörmət etmədiyinin bir daha şahidi olublar.



### Prezident İlham Əliyev: "Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət"

"Baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət. Ümumiyyətlə, müharibənin necə aparılması barədə anlayışları yoxdur",-deyən Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə verdiyi müsahibəsində bildirib.

Dövlət başçısı onu da deyib ki, bu alçaqlar həmişə saxta, yalançı, mənəviyyatsız olub: "Hətta atəşkəsin Ermənistan tərəfindən pozulması aydın olduqda belə. Moskvada atəşkəs əldə olunmasından heç bir gün keçməmiş onlar Gəncəyə zərbə endirdilər. İndi də, Vaşinqtonda atəşkəs razılaşdırıldıqdan bir gün sonra, özü də bunun üçün onlar yalvarırdılar. Axı, atəşkəs barədə yalvaran onlar idi. Moskvada da, indi də Fransa tərəfinin fəaliyyəti nəticəsində əldə edilmiş atəşkəs pozulub. Bir gün keçmədi, onlar Bərdəni atəşə tutdular. Buna qədər isə onlar Tərtərdə dəfn mərasimini atəşə tutmuşdular. Orada 4 nəfər həlak olmuşdu. Bu, qeyri-insani əməllər onu göstərir ki, baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət". Bəli, buna diplomatlar bir daha şahid oldular.

### Erkan Özoral: "Cəbrayılda gördüklərimiz insanlıqdan kənardır, əsl vəhşilikdir"

"Azərbaycanın işğaldan azad etdiyi digər rayonlarında olduğu kimi, Cəbrayılda da eyni mənzərənin şahidi olduq. Bu ərazilərdəki dağıntılardan ibrət götürmək lazımdır". Bu sözləri Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Ermənistan tərəfindən yerlə-yeksan edilmiş Cəbrayıl şəhərində jurnalistlərə açıqlamasında deyib.

"Şəhəri yerləbir etdiklərini, bütün abidələri, o cümlədən mədəniyyət abidələrini dağıtdıqlarını gördük. Hətta məzarları soyduqlarının, insan sümüklərinin ətrafa səpələndiyinin şahidi olduq. Bunlar insanlıqdan kənardır, əsl vəhşilikdir. Bütün bunların hesabı mütləq verilməlidir", - deyə Erkan Özoral qeyd edib.

"Cəbrayılda belə bir mənzərəni görmək doğrudan da çox ağrılıdır",deyən Xorvatiyanın ölkəmizdəki səfiri Branko Zebic Cəbrayılda ermənilər tərəfindən törədilmiş dağıntılarla tanış olduqdan sonra jurnalistlərə açıqlamasında deyib.

Səfir bildirib ki, xüsusilə qəbiristanlığın tamamilə dağıdılmasını görmək çox ağrılı bir səhnədir: "Bu kimi hallar bizə onu göstərir ki, bu cür hadisələr, münaqişələr baş verməməlidir və bir daha belə mənzərələri yaşamamalıyıq".

### Reza Deqati: "Ermənilər qəbiristanlıqdakı bütün qəbirləri ekskavatorla qazaraq qızıl axtarıblar"

"Cəbrayıl şəhərində bir dənə də olsun salamat ev qalmayıb. Bu, bir dəhşətdir". Bunu dünya şöhrətli fotoqraf Reza Deqati xarici diplomatlar və hərbi attaşeləri Cəbrayıl şəhərindəki qəbiristanlıqdakı vəziyyətlə bağlı məlumatlandırarkən deyib. O vurğulayıb ki, ermənilər bütün qəbirləri dağıdıblar: "Ermənilər qəbiristanlıqdakı bütün qəbirləri ekskavatorla qazaraq qızıl axtarıblar. Hesab edirəm ki, bu insanlığa və bəşəriyyətə qarşı bir cinayətdir. Mən Birinci Qarabağ müharibəsi zamanında da burada olmuşam. Ancaq indi gördüyüm hər şey məni dəhşətə gətirir. Çünki mən nə qədər hərbi münaqişə zonalarında olmuşam və heç yerdə belə dəhşətli mənzərə görməmişəm".

Qeyd edək ki, dünyada tanınmış fotoqraf Reza Deqqəti bildirib ki, son 30 ildə Dağlıq Qarabağ münaqişəsinə, erməni işğalına dair şəkillər çəkir: "Qarabağda müharibə yenidən başlayan kimi mən təkrar Azərbaycana gəldim. İndiyədək dünyanın müxtəlif münaqişə bölgələrində olmuşam. Amma buradakı kimi dəhşəti az görmüşəm. İşğal edilmiş ərazilərdə ermənilər tərəfindən insanlığa qarşı cinayət törədilib. Qəbirlər ekskovatorla qazılıb, sümüklər çıxarılıb. Ermənilər o qədər qəddardırlar ki, cəsədlərin çıxarılmasından ləzzət alıb, qızıl dişlər axtarıblar".



Qeyd edək ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri əvvəlcə Cocuq Mərcanlı kəndində olublar.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatlara işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər barədə ümumi məlumat verib, həmçinin Cocuq Mərcanlının qayıdış rəmzi olduğunu bildirib.

H.Hacıyev qeyd edib ki, "Ermənistan işğal etdiyi torpaqlarda dini yerləri, məscidləri yerlə yeksan edib. Ancaq fəxrlə deyə bilərəm ki, mənim ölkəmdə məscidlər, sinaqoqlar, kilsələr qorunur və yanaşı yerləşir". O qeyd edib ki, yenidənqurma prosesində bütün dağıdılmış dini abidələr bərpa ediləcək: "Biz Prezidentin dediyi kimi, yenidənqurma işlərində qərarlı və qətiyyətliyik. Bərpa prosesi ilə bağlı artıq layihələr təsdiqlənib".

Bəli, bu gün terrorçu və işğalçı Ermənistanın barbarlığı, vandallığı heç də təəccüb doğurmur. Çünki terrorçu Ermənistan bütün dünyada işğalçılıq siyasəti ilə qəbul edilir. Azərbaycan isə həmişə haqq və ədalətin bərpası uğrunda mübarizə aparıb. Məhz sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana qarşı İkinci Vətən Müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev diplomatik siyasəti, Müzəffər Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti nəticəsində işğal altında olan torpaqlarımızın həsrətinə noyabrın 10-da son qoyuldu. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Və Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir mil-

# Diplomatların işğaldan azad olunmuş ərazilərə səfərləri...

## *Məqsəd həmin ərazilərdə erməni vandallığını xarici diplomatlara əyani şəkildə göstərməkdir*



li şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Artıq dünya ictimaiyyəti, ayrı-ayrı beynəlxalq təşkilatlar və dövlətlər bir daha şahid oldular ki, Cənubi Qafqazda terrorçu, işğalçı, barbar dövlət Ermənistandır və törətdikləri cinayət əməllərinə görə cəzalandırmalıdır.

Belə ki, ermənilər işğal etdikləri torpaqlarımızdakı yüzlərlə mədəniyyət müəssisəsini də dağıdıblar. Mədəniyyət Nazirliyinin açıqladığı faktlara görə, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

O cümlədən Cəbrayıl rayonunda VII-XII əsrlərə aid 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonundakı Gəncəsar və Xudavənd məbədləri (XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə (XIV əsr), Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminə məruz qalıb.

Məlumat üçün bildirək ki, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ və ətraf 7 rayonda 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox (2625 ədəd) tarix və mədəniyyət abidəsi var. Dövlət qeydiyyatına alınan abidələrdən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələridir. Eyni vandallıq əməllərini onlar Ermənistan ərazisindəki tarixi torpaqlarımızda Azərbaycan xalqına aid maddi-mədəniyyət abidələrinə qarşı da həyata keçiriblər. Təkcə bir faktı diqqətə çatdıraq ki, XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscid qeydə alındığı halda, bu gün Ermənistan ərazisində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb. Bunu da erməni xislətinə uyğun olaraq "gözə kül üfürmək"dən ötrü saxlayıblar.

Əlbəttə, bütün bu dağıntılar məqsədli şəkildə edilib. Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədini güdüb. Bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıblar. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Cəbrayıl rayonuna səfəri zamanı erməni işğalçılarının çirkin niyyətini açaraq bildirmişdi: "Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur, erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir".

### Prezident İlham Əliyev: "Bu işlər planlı şəkildə aparılacaq"

Artın Ermənistanın ərazilərimizdəki dağıdıcılıq əməllərinin dəqiq miqyasını müəyyən etməkdən ötrü qiymətləndirmə işləri aparılır. Bununla bağlı lazımi tədbirlər görülür.

Azərbaycan Prezidenti bu işlərin planlı şəkildə aparılacağını qeyd edib. İlk növbədə, ziyanın hesablanması, dəqiq uçotu, ondan sonra bərpa-yenidənqurma işləri həyata keçiriləcək: "Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik".

Artıq bərpa-quruculuq işlərinə başlanılıb. Müqəddəs şəhərimiz olan Şuşaya Füzulidən Zəfər yolumuz çəkilir, bütün işlər planlı aparılır. Qarabağ Azərbaycanımızdır öz planlı bərpa, quruculuq və abadlığı ilə möhtəşəm nailiyyətlərin NİDASINI qoyacaq!

### Ermənistan isə illərlə törətdiyi cinayət əməllərinə görə cavab verməli olacaq

Bəşəriyyətə qarşı mənfur əməlləri ilə özlərini gələcəksizliyə məhkum etmiş ermənilərin dağıdıcılıq əməlləri isə cavabsız qalmayacaq. Onlar bu vəhşiliyə görə beynəlxalq məhkəmələr qarşısında cavab verməli olacaqlar. Azərbaycan 30 ilə yaxın dövr ərzində bu vəhşiliyi törətmiş Ermənistana qarşı təzminat davası açacaq. Çünki bu, haqqın, ədalətin bərpası uğrunda aparılan savaş davasıdır, soydaşlarımızın pozulmuş haqlarının bərpasının davasıdır. Həmişə Qalib olan Azərbaycan bu davada da mütləq zəfər qazanacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

## Azərbaycan Ordusu Vətən müharibəsində qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirdi



Azərbaycan Ordusunun ötən il sentyabrın 27-də başladığı genişmiqyaslı əks-hücum əməliyyatının əsas məqsədi 30 ilə yaxın düşmən tapdağı altında olan əzəli torpaqlarımızı işğaldan azad etmək idi. Bu amal uğrunda Azərbaycan Ordusu və xalqı dəmir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbə vurdu.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının zabiti, polkovnik Pərviz İbrahimov fevralın 9-da jurnalistlərə müsahibəsində deyib.

Pərviz İbrahimov bildirib ki, hərbi hissəmizin kollektivi Raket və Artilleriya Qoşunlarının tərkibində əks-hücum əməliyyatı zamanı düşmənin bir sıra müxtəlif obyektlərinə tək və qrup raket zərbələri endirməklə, eləcə də ümumqoşun bölmələrinin qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirməsi üçün düşmənin lazımi səviyyədə itkilər verməsinə nail olub.

Vətən müharibəsindən çıxarılan nəticələr onu göstərir ki, Azərbaycan Ordusu müharibə zamanı qarşıya qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə icra edib. Hərbi hissəmiz hazırda döyüş hazırlığı proqramına uyğun olaraq bölmələrin səhra vərdişlərinin daha da artırılması istiqamətində fəaliyyətini davam etdirir.

Polkovnik vurğulayıb ki, qarşıda bir sıra mühüm məsələlər durur. Onlardan biri gecə məhdud görmə şəraitində dağlıq ərazilərdə atəş tapşırıqlarını yerinə yetirmək üçün düşmənə daha effektli raket zərbələri endirmək, həmçinin pilotsuz uçuş aparatları ilə qarşılıqlı fəaliyyəti genişləndirmək, onlardan alınan kəşfiyyat məlumatlarını təhlil etməkdir. Şəxsi heyət hazırda çöl dərsləri ilə məşğuldur. Onun mənəvi-psixoloji vəziyyəti daim yüksək səviyyədədir. Ordumuz daim Qələbə əzmi ilə yaşayacaq.

## Müdafiə Nazirliyi: Vətən müharibəsində 184 artileriyaçı şəhid olub



Artilleriya Qoşunları digər qoşun növləri ilə birlikdə düşmənin dərinlikdə yerləşən hədəflərini dəqiq atəş zərbələri ilə məhv edərək düşməni sözün əsl mənasında iflic vəziyyətə gətirmişdi. SİA-nın məlumatına görə, bunu Müdafiə Nazirliyinin Mətbuat katibi, polkovnik - leytenant Anar Eyvazov deyib.

O bildirib ki, bu müharibədə şücaət və peşəkarlıq nümayiş etdirən artilleriya qoşunlarının 4 minə qədər hərbi qulluqçusu Vətən Müharibəsi Qəhrəmanı da daxil olmaqla müxtəlif orden və medallarla təltif edilib: "Vətən müharibəsində Artilleriya Qoşunlarının 184 nəfər hərbi qulluqçusu şəhid olub, bir neçə yaralılar olub. Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin".

A. Eyvazov deyib ki, Azərbaycan Ordusu Vətən müharibəsi başa çatdıqdan sonra Müdafiə naziri tərəfindən təstiq olunmuş döyüş hazırlığı planına müvafiq olaraq hazırda daimi dislokasiya məntəqələrində, eyni zamanda işğaldan azad edilmiş yeni ərazilərdə yerləşib və orada döyüş hazırlığı ilə məşğul olur: "Artilleriya Qoşunları da eyni zamanda döyüş hazırlığı ilə məşğul olur, yüksək texnoloji silahları mənimsəyir, bu silahlar şəxsi heyətə praktiki öyrədilir, artilleriyaçılarımızın peşəkarlığı təmin edilir".

TƏRS BAXIŞ

# Xankəndidə baş verən təxribatlara susaq, yoxsa?..

*Qarabağa qanunsuz səfərlər, "dqr"in "təhlükəsizlik şurasının iclası", "hərbi xidmətə çağırış"*

**Artıq kifayət qədər bəllidir ki, ikinci Qarabağ savaşında - Vətən müharibəsində əldə edilən qələbəmizin ardınca imzalanan üçtərəfli bəyanatın bir sıra müddəalarına əməl olunmur və bəyanatın müddəalarını pozan da, məhz erməni tərəfidir, bu məsələ ətrafında kifayət qədər faktlar var və həmin faktlar demək olar ki, hər gün dəyişir, yenilənir.**



Lakin daha bir amil budur ki, baş verən pozuntulara, hətta əldə edilmiş razılaşmaya rəğmən, yəni atəşkəs rejiminə sülhməramlı qismində nəzarət mexanizmini həyata keçirən Rusiya tərəfi də seyrci olaraq qalmaqdadır. Noyabrın 10-dan üzü bu yana istər Ermənistandakı hakim və s. siyasi dairə nümayəndələrinin, istərsə də xarici jurnalistlərin, eləcə də digər müxtəlif istiqamətli təşkilat və qurum təmsilçilərinin dəfələrlə səfərləri olub və həmin səfərlərin heç biri Azərbaycanla razılaşdırılmayıb!

### Anna Naqdalyan: "Fransadan olan nümayəndə heyəti Ermənistan XİN tərəfindən akkreditə olunaraq "artsaxı" ziyarət edib"

Ötən gün isə belə bir məlumat yayılmışdı ki, Fransadan olan bir qrup jurnalist İrəvanda akkreditə olunaraq, oradan Xankəndinə getməyi planlaşdırıblar və Laçın dəhlizində buraxılış məntəqəsi quran Rusiya sülhməramlıları həmin jurnalistləri əraziyə buraxmayaraq bildiriblər ki, onlar Bakıdan icazə almalı, yalnız ondan sonra Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərə keçməlidirlər. Bəri başdan qeyd edib ki, həmin məlumatı Ermənistanın Vatikandakı sabiq səfiri olmuş Mikael Minasyan teleqram və s. sosial şəbəkə səhifələrində paylaşmışdı. Lakin...

Lakin sonradan bəlli oldu ki, Minsanyan yalan danışıb və yenə də digər erməni teleqram kanalı olan "Mısli armyanina" (Ermənin düşüncələri - R.R.) "Minasyanın növbəti yalanı" başlıqlı informasiya paylaşıb və bu informasiyada deyilib. SİTAT: "Fransadan olan nümayəndə heyəti Ermənistan XİN tərəfindən akkreditə olunaraq "artsaxı" ziyarət edib. Səfər haqqında XİNnin mətbuat katibi Anna Naqdalyan məlumat verib. Təbii ki, heç kim icazə üçün Bakıdan heç nə soruşmayıb...". Bax, belə...

### Uduzan tərəf bizə meydan oxuyur?

Təkcə bu informasiyanın özü - yəni fransalı jurnalistlərin Bakının icazəsi olmadan Qarabağa səfər etmələri artıq imzalanmış sənədin üzərindən çalınçarpaz xətlər çəkir və əslində, bu addım həm erməni təxribatı, həm də sözün əsl mənasında uduzan tərəfin bizə meydan oxuması anlamını daşıyır. Bizim XİN isə nədənsə (?-R.R.) susmağa üstünlük verir və susqunluğu ilə yanaşı hər kəsi narahat edən, nigarançılıqda saxlayan, sözün əsl mənasında ürək bulandıran bu kimi olaylara əvvəllər olduğu kimi, sərt, kəskin münasibət bildirmir? Niyə əcəba? Təəssüf ki, bu barədə də məlumatsızıq. Ancaq gəlin görək, təxribatlar yalnız bu kimi səfərlərlə yekunlaşırmı? Yenə də xeyr...

### Yerevan today: "Gündəmdə - "artsaxın" təhlükəsizliyinin təmin edilməsi məsələlərindən tutmuş "respublikanın" nəzarəti altında olmayan regionlarının və sakinlərinin problemlərinədək olan müharibəsonrası reallıqları olub"

Ötən gün quldur "dqr" rejiminin saxta "prezidenti" Araik Arutunyanın "sədrliyi" ilə "təhlükəsizlik şurasının" iclası keçirilib. SİA xəbər verir ki, bu barədə yerevan today yazır. Məlumatda bildirilir ki, gündəmdə - "artsaxın" təhlükəsizliyinin təmin edilməsi məsələlərindən tutmuş "respublikanın" nəzarəti altında olmayan regionlarının (?!-R.R.) və sakinlərinin problemlərinədək olan müharibəsonrası reallıqları olub. SİTAT: "Məruzə ilə "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyan, "ərazi idarəetmə və infrastruktur naziri" Hayk Xanumyan, "şəhərsalma naziri" Aram Sarkisyan çıxış ediblər". Bu da son deyil! Adıçəkilən erməni informasiya agentliyi növbəti xəbərində yazır ki:

### "Dqr"in "müdafiə ordusunda" qış çağırışlarına start verilib"

Qarabağda "müdafiə ordusuna" qış çağırışları start götürülüb. Erməni agentliyi isə bu məlumatı "artsaxın müdafiə nazirliyinə" (?!-R.R.) istinad edərək yazıb. Üstəlik, informasiyada bildirilir ki, "çağırış komissiyasının" üzvləri prosesin şəffaf aparılmasını izləyir, püşkatmalar videoya yazılır və s. Tamamilə imzalanmış üçtərəfli bəyanata zidd bir fakt - erməni silahlıları tərksilah olunmaları yerinə,"ordu" qururlar və bilavasitə Rusiya sülhməramlılarının gözləri önündə və birbaşa Azərbaycanın suveren torpaqlarında!!!

Maraqlı və düşündürücüdür ki, məgər bizim XİN bu faktların hər birinə kəskin reaksiya vermək üçün nə qədər gözləməlidir? Axı müharibə zamanı diplomatiyamız sözün əsl mənasında diplomatik sahədə əsl şücaət nümayiş etdirdi, erməni vəhşiliyinin reallıqlarını tam çılpaqlığı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırdı, ədalətli savaşımız ətrafında dəqiq, müfəssəl və uğurlu fəaliyyətlərinə imza atdı, bəs indi?

### Hələlik isə çoxsaylı suallarımız cavabsız qalmaqdadır və ümid edirik ki, həmin suallara cavablar da veriləcək, istər diplomatik, istərsə də Qarabağ cəbhəsində...

Yaxud, məsələ yalnız onunla başa çatmır ki, Rusiya sülhməramlıları bizim (!!!) ərazilərimizdə bizim (!!!) tikinti materiallarımızı "təhlükəsizliyi təmin etmək" adı altında yenə də bizim (!!!) nəzarətimiz altında olan digər ərazilərimizə aparılmasını hərbi kolonları ilə müşaiyət edir.

Və ya məsələ yalnız onda deyil ki, Rusiya sülhməramlılarının kontingenti gün ərzində qeydiyyatları təyin olunmamış erməniləri birucdan Xankəndinə daşımaqla "atəşkəsi təmin edir", xeyr, bu növbəti təxribatlara, müharibəyə sövqə tərəf atılan kiçik addımlardır və böyük təhlükələrə doğru inkişaf edir və bunu bilənlər də yaxşı bilir, anlayır.

İndi bir sual bizləri gecə-gündüz rahat buraxmır ki: Xankəndində təxribatlar tam sürəti ilə davam edərkən biz susaq, yoxsa baş verən reallıqları yazmağa davam edək? Çünki bu da bizim jurnalistlik, vətəndaşlıq borcumuzdur və narahatlıq yaradan, problemlər doğuran bir sıra məsələləri diqqətə çatdırmaq, məhz peşə fəaliyyətimizdən irəli gələn haldır. Hələlik isə çoxsaylı suallarımız cavabsız qalmaqdadır və ümid edirik ki, həmin suallara cavablar da veriləcək, istər diplomatik, istərsə də Qarabağ cəbhəsində...

*Rövşən RƏSULOV*

## Azərbaycan dünyada ilk dəfə "Sputnik V" və "AstraZeneca" vaksinlərini tədqiq edəcək



8 fevral 2021-ci il tarixində Azərbaycannın Səhiyyə Nazirliyi "Sputnik V" vaksininin və "AstraZeneca" şirkətinin Oksford Universiteti ilə birgə işləyib hazırladığı vaksinin birgə tətbiqi üçün Azərbaycan Respublikasında kliniki tədqiqatların aparılması üçün icazə verib. Səhiyyə Nazirliyindən SİA-ya verilən məlumata görə, bu tədqiqatların cari ilin fevral ayının sonuna qədər başlanılması nəzərdə tutulur.

Daha əvvəl N.F.Qamaleya adına Elmi-Tədqiqat Mərkəzi, Rusiyanın Birbaşa İnvestisiyalar Fondu (RBİF), "AstraZeneca" şirkəti və "R-Pharm" Şirkətlər Qrupu koronavirus vaksininin hazırlanması sahəsində Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə 2020-ci ilin dekabrında əməkdaşlıq haqqında birgə memorandum imzalayıblar. Dünyada vaksinlərin ilk birgə tətbiqi 24 dekabr 2020-ci ildə qeydə alınan kliniki sınaqların protokolu çərçivəsində həyata keçirilir.

Tədqiqatlar "Sputnik V" vaksininin və Oksford Universiteti ilə birgə "AstraZeneca" şirkəti tərəfindən işlənib hazırlanmış vaksinin kombinasiya edilmiş tətbiqinin immunogenliyini və təhlükəsizliyinin qiymətləndirilməsini nəzərdə tutur. Tədqiqat proqramı bir neçə ölkənin ərazisində 6 ay davam edəcək. Bu tədqiqatların aparılmasına hər bir ölkədən 100 könüllünün cəlb edilməsi planlaşdırılır.

### "Sputnik V" vaksini haqqında

"Sputnik V" vaksini insan adenovirusu əsasında iki inyeksiya üçün eyni vektordan istifadə edən vaksinlərlə müqayisədə daha güclü və uzunmüddətli immun cavabını təmin etməyə imkan verən iki müxtəlif vektorun kombinasiyasının unikal texnologiyasından istifadə edir. Birinci və ikinci immunizasiya üçün iki müxtəlif adenovirus vektorunun tətbiqi üzrə sxem birinci immunizasiyadan sonra formalaşan ilk vektor immunitetinin qarşısını almağa imkan verir və bununla da ikinci inyeksiyanın səmərəliliyini artırır və uzunmüddətli immunitet yaradır. O cümlədən, bu sxem sayəsində "Sputnik V" vaksininin səmərəliliyi 90%-dən çox olur, bununla belə preparat xəstəliyin ağır hallarına qarşı tam müdafiəni təmin edir. Koronavirusa qarşı mövcud olan qabaqcıl vaksinlər arasında hazırda yalnız "Sputnik V" iki müxtəlif vektor texnologiyasına malikdir.

### "AstraZeneca" şirkətinin vaksini haqqında

Vaksin "Vaccitech" şirkəti ilə birlikdə Oksford Universiteti tərəfindən hazırlanmışdır. Bu şimpanzedə infeksiyaya səbəb olan adi soyuqdəymə virusunun (adenovirusun) zəifləmiş versiyası əsasında şimpanzenin replikasiya qüsurlu virus vektorundan istifadə edir və SARS-CoV-2 (severe acute respiratory syndrome coronavirus 2 - 2-ci növ koronavirusun səbəb olduğu ağır kəskin respirator sindromu) zülalının genetik materialından ibarətdir. Vaksinasiyadan sonra zülalın səthi sintezi baş verir. Bu da, bu virusun ehtimal edilən sonrakı infeksiyası zamanı SARS-CoV-2-yə qarşı immunitet reaksiyasının yaranmasına səbəb olur.

## Ermənistanın baş prokuroru Qarabağa gəlib



Ermənistanın baş prokuror Artur Davtyan Azərbaycanın separatçıların nəzarəti altında olan Qarabağ bölgəsinə qanunsuz səfərə gəlib. SİA Ermənistan KİV-ə istinadən xəbər verir ki, o, Xankəndində separatçı rejim qalıqlarının başçısı Araik Arutunyanla görüşüb. Onlar müharibəsonrası dövrdə insan fəaliyyətinin müdafiəsinə yönəlmiş dövlət institutlarının fəaliyyətinin təşkili, qondarma "DQR" vətəndaşlarının hərəkətetmə, ərazidəki "qanuniliyin" təmin edilməsi və s. məsələləri müzakirə ediblər.

# “Söz yağışı”na öyrəncəli xəstə cəmiyyət

**Ermənistan hakimiyyətinin özünün erkən parlament seçkilərinin keçirilməsi fikrindən vaz keçməsi heç şübhəsiz ki, düşündürücüdür. Əbəs yerə deyil ki, bu məqam təkcə erməni cəmiyyətində deyil, qonşu Rusiyada da maraq doğurub və hətta müzakirə mövzusuna çevrilib. Görünür, erkən parlament seçkilərinin keçirilməsi məsələsi də elə boş sözdən başqa bir şey deyilmiş.**

Rusiyaya məxsus media orqanı olan “kommersant”-a İrəvandakı həmsöhbətləri bildiriblər ki, belə bir qərar, yəni, erkən parlament seçkilərinin keçirilməsi fikrindən vaz keçməsi qərarı ölkədəki siyasi böhranı yalnız şiddətləndirə və küçə qarşıdurmasına gətirib çıxarar. Təbii ki, bu yanaşma səbəbsiz deyil. Amma hakim “Mənim addımım” bloku izahat verir ki, bu təklif nə müxalifətdən, nə də əhalidən “müsbət cavab görməyib” və guya erkən parlament seçkilərinin keçirilməsi fikrindən vaz keçilməsi də buna görədir.

Ermənistan hakimiyyəti gözlənilmədən açıqladı ki, yaxın vaxtlara qədər ölkənin keçən ilin payızında Dağlıq Qarabağdakı müharibədə məğlubiyyətindən sonra yaranan siyasi böhrandan çıxış yolu olaraq görülən erkən parlament seçkiləri keçirməyəcəklər. 7 Fevralda hakim “Mənim addımım” blokunun fraksiya lideri baş nazir Nikol Paşinyanın iştirakı ilə bir toplantı keçirildi və iclasdan sonra “baş nazirin erkən parlament seçkiləri təklifi müsbət qarşılanmadı parlament tərəfindən. Ölkə müxalifətinin, habelə əhalinin dəstəyini görən olmadı.

Xatırladaq ki, bir qədər əvvəl Ermənistan hakimiyyəti parlamenti buraxaraq erkən parlament seçkilərinə getməyi planlaşdırırdı guya. Bu ehtimal ölkə konstitusiyasında da nəzərdə tutulmayıb. Yəni qanunvericilikdə də məsələ sual işarəsi altındadır. Lakin nəzərə alsaq ki, Ermənistan hakimiyyəti istəyəndə qanuna da öz xeyri naminə dəyişiklik edir, deməli, hakim blokun parlamentdə səsvermə yolu ilə qanunvericiliyə xüsusi bir dəyişiklik edəcəyi şübhə doğurmurdu.

Hazırkı erməni dövlətinə dövlət deməyə belə adamın dili dönmür. Bu hökumət, balığın, quşun, bir də əqrəbin bir arabanı üç istiqamətə dartan fotoşəklini xatırladır. Eyni ilə, indi xaosun hökm sürdüyü Ermənistanı Paşinyan bir tərəfə, Koçaryan o biri tərəfə, müxalifət nümayəndəsi Manukyan da digər tərəfə dartır. Belə bir vəziyyətdə nələrin olacağını, hansısa hədəflərə nail olunacağını söyləmək qətiyyən mümkün deyil və kimliyindən asılı olmayaraq hansısa lider bunu iddia edirsə, deməli, kütləni aldadır. Bir növ daxili auditoriyanı, kütləni “söz yağışı”-na tutublar və sanki, həmin kütlə də buna həm öyrəncəlidir, həm də ehtiyac duyur. Yaxud belə bir xaotik müstəvidə hansısa lider ortalığa düşübsə, deməli, bir növ yarışa girib. Mövcud hökumətin potensial yarışdakı əsas rəqibləri də məlumdur. Bu rəqiblər, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan, eləcə də müxalifət namizədi Manukyandır.



Keçən həftə Koçaryan Moskvaya yollandı, hansı ki, erməni siyasətçilər bu səfəri də seçki kampaniyası ilə əlaqələndirdilər. Ermənistan müxalifəti liderlərinin son iclası da eyni məzmunda oldu və onlar da həmin fikirdə idilər. Məsələn, eks-prezident Serj Sarkisyan, baş nazirliyə müxalifətdən olan vahid namizəd Vazgen Manukyan, Rodina partiyasının lideri Artur Vanesyan, Çiçəklənən Ermənistan partiyası lideri Qaqik Sarukyan və “Daşnaksütyun” Erməni İnqilab Federasiyası rəhbərliyinin nümayəndəsi İşxan Sagatelyan da bu fikirdə olublar. Hətta, vəzyyətin qiymətləndirilməsini də Koçaryanın Rusiya paytaxtından geri dönməsindən sonraya saxlayıblarsa, deməli, onların hamısı eyni şübhələr içərisində olublar ki, Ermənistanın ikinci prezidentinin Rusiya səfəri yalnız seçki kompaniyası ilə əlaqədar ola bilər. Mübahisə etmək niyyətində deyilik, ola bilsin məsələnin kökündə hansısa məqamlar ola bilər və ermənninin öz içindəki məkri hamıdan yaxşı özünün tanıdığına şübhə ola bilməz. Amma bu, müzakirə mövzusu deyil, müzakirə mövzusunun yalnız bir detalıdır.

Məsələ burasındadır ki, Ermənistan hakimiyyət orqanlarının erkən parlament seçkilərindən imtina etməsi dərhal bir çox tənqidlərə, müzakirələrə səbəb oldu və Robert Koçaryan da buna hətta rəhbərlik elədi. Keçmiş prezident tərəfindən dəstəklənən “Vətənin xilası naminə ” müxalifət hərəkatı artıq hakimiyyətin “xalqın qəzəbinin ağırlığını hiss edəcəyini” bildirib və İrəvanın mərkəzində 20 Fevral mitinqi təyin edib. Ermənistanın ikinci prezidenti Robert Köçəryanın ofisinin rəhbəri Viktor Soqomonyan “Kommersant”-a bildirib ki, siyasi böhranın həlli üçün hakimiyyətin erkən seçki keçirməkdən imtina etməsi küçə etirazını gücləndirə bilər.

“Ölkədə heç bir iş qabiliyyəti olmayan bir hökumət və bir siyasi böhran var. Bu cür böhranlar ya seçki yolu ilə, ya da başqa yollarla - küçə etirazı, inqilab yolu ilə həll olunur. Siyasi tarixdə buna uyğun bir çox nümunələr var”, deyib Soqomonyan öz müsahibəsində, amma, bununla yanaşı, Robert Koçaryan və komandasının indi hansı strategiyaya əl atacağı “Kommersant”-a açıqlanmayıb.

Politoloq Hrant Mikaelyan da öz növbəsində, yalnız kütləvi etiraz aksiyalarının seçki fikrini gündəmə qaytara biləcəyini söyləyib. “Hakimiyyət orqanlarının özlərində belə bir motivasiya yoxdur”, deyən ekspert “Kommersant”-a erkən seçkilər keçirilərsə, nə ilə nəticələnəcəyi barədə proqnozlar verib.

“Əgər erkən seçkilər keçirilsə, “Mənim addımım” fraksiyası artıq iki dəfə azalmalı olacaq. Hakim blokun deputatlarının yarısından çoxu erkən seçkilər keçirilərsə, parlament xaricində qalar. Belə olan halda, bunu etməyə razılıq verərlərmi?”, deyə ekspert Mikaelyan sual edərək məsələnin mahiyyətinə diqqəti cəlb edib.

Müxalifətin güclü küçə etirazları təşkil etməsinə və beləliklə də, Nikol Paşinyanı iqtidarı tərk etməyə məcbur edəcəyinə politoloq Mikaelyan inanmır.

“Müxalifətdə vahid yanaşma yoxdur, müxalifət parçalanmışdır. Əgər o, kifayət qədər güclü bir etiraz təşkil edə bilməsə, Paşinyan və komandası növbəti seçkilərə qədər, yəni, 2023-cü ilin sonuna qədər ölkənin siyasi rəhbərliyində qalacaq”, deyə Hrant Mikaelyan bildirib.

Ola bilsin ki, Nikol Paşinyan adlı bir sərsəm, küçədən gələn bir “köhnə dərviş” nə qədərsə müddətə hakimiyyətini uzatmağa çalışa və buna nail ola bilər, amma bu, bütövlükdə ermənilərə, Ermənistan dövlətinə nə isə qazandıracaq demək deyil axı. Əksinə, hələ də bu ölkə yanlış istiqamətdədir və kütlə kor kimi hansının, kimin ardınca düşəcəyini müəyyən edə bilmir. Bircə dənə siyasət adamı çıxıb ortalığa sağlam bir strategiya irəli sürmür, demir ki, hər hansı ölkənin mövcudluğu, müstəqilliyi iqtisadi gücündən, imkanlarından, ən azından potensialından asılıdır. Birinin belə sanki ağlına gəlmir ki, işğalçılıq siyasətindən əl çəkməsələr, normal qonşuluq əlaqələri qurmasalar, qlobal layihələrə, iqtisadi əlaqələrə, ticarət əlaqələrinə üstünlük verməsələr, sabitlik yaradılmasa, bu ölkənin ən yaxın zamanda məhvi qaçılmazdır.

Bütün bunlar ondan xəbər verir ki, hazırda Ermənistanda heç kim mövcud vəziyyətdən baş çıxara bilmir və xaos elə bir şəkildə ölkəni bürüyüb ki, bu dövlətin hansısa bir yol tapacağına inanan belə yoxdur. İşğalçı ölkədə çoxdandır siyasətçilər ancaq söz güləşdirirlər və real iş barəsində düşünən tapılmır. İstər Koçaryan, istər Sarkisyan, istər Paşinyan olsun, istərsə də hələ bu aralarda ortaya atılan Vazgen Manukyan belə ancaq sözdə vədlər verir erməni xalqına. Bir növ, bu xəstə təxəyyüllü cəmiyyət “söz yağışı”na öyrəncəli olub və hap-gopdan başqa bir işin qulpundan yapışmağı tamamilə yaddan belə çıxarıb. Bir nəfər siyasətçi ortaya atılıb bu rəzil ölkənin xilas yolunu, sağlam yaşam tərzini ortaya qoya bilmir. Hələ də ölkə yanlış yoldadır və hələ də “Revanşizm” deyə xam xəyallara düşən avantüristlər ortalıqda su bulandırmağa cəhd edir. Bu isə Ermənistan dövlətinə, bütövlükdə ermənilərə yaxşı heç nə vəd etmir.

*İnam Hacıyev*

# Övladlığagötürmə asanlaşır?

**Azərbaycanda övladlığagötürmə asanlaşdırılır. Bununla bağlı Ailə Məcəlləsində dəyişiklik edilir. Dünən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin onlayn formatda növbəti iclasında müzakirəyə çıxarılıb.**

Məsələ barədə məlumat verən Hicran Hüseynova diqqətə çatdırıb ki, cənab Prezidentin 2018-ci ildə “Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” imzaladığı Fərmana əsasən Ailə Məcəlləsinin övladlığa götürmə ilə bağlı müddəaları təkmilləşdirilmiş və bu sahədə xidmətlərin aparılması üçün elektron idarəetmə sistemi yaradılmışdır. İndi təklif edilən dəyişikliklər isə övladlığa götürmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə mühüm töhfə olacaq və əsas məqsəd uşaqların hüquq və maraqlarının qorunması, onların sağlam ailə mühitində böyüməsi üçün etibarlı zəmin yaratmaqdır.



Dəyişikliyə görə, uşaqları övladlığa götürmək istəyən qohumları üçün övladlığa götürmə proseduru asanlaşdırılır, bəzi prosedurlar aradan qaldırılır. Dəyişiklik müzakirələrdən sonra plenar iclasa tövsiyə edilib.

## Almaniya Rusiyaya sanksiya tətbiq edəcək

Almaniya Xarici İşlər Nazirliyi cavab tədbiri olaraq Rusiya səfirliyinin bir əməkdaşını arzuolunmaz şəxs (persona non grata) elan edib. “RİA Novosti” xəbər verir ki, həmçinin Polşa və İsveç xarici işlər nazirlikləri də eyni addımı atmaq niyyətini açıqlayıblar.



Xatırladaq ki, cümə günü Rusiya Xarici İşlər Nazirliyi Almaniya səfirliyinin, habelə Polşa və İsveçin Sankt Peterburqdakı baş konsulluqlarının bu ölkədə keçirilən etiraz aksiyalarında iştirak etdikləri bildirilən əməkdaşlarının arzuolunmaz şəxs elan edilməklə ölkədən çıxarılacaqlarını açıqlamışdı.



## Bakı metropoliteni sərnişin daşımağa hazırdır

**Bakı metropolioteni sərnişin qəbulunu dayandırmasına baxmayaraq, fəaliyyətini bərpa etməyə hazırdır. Bunu “İki sahil”ə açıqlamasında “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Mətbuat xudmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.**

O bildirib ki, sərnişindaşımadan asılı olmayaraq, metroda bütün infrastruktur işlək və saz vəziyyətdə qorunub saxlanılır: “Bakı metropoliteninin pandemiya dövründə sərnişidaşıma fəaliyyətinin tənzimlənməsi birbaşa olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın səlahiyyətindədir. Buna baxmayaraq, metronun infrastrukturu sərnişindaşıma fəaliyyətindən asılı olmayaraq texnoloji proseslərə söykənən amildir. Bu müvafiq normativ sənədlərə, o cümlədən texniki istismar qaydalarına uyğun həyata keçirilir. Pandemiya dövrünün şərtlərindən asılı olmayaraq, metropoliten fəaliyyətə başladığı müddətdən bu günə qədər bu proseslər normativ sənədlərə uyğun tənzimlənir. hazırda da bu proses davam etdirilir”. B.Məmmədov deyib ki, metronun sərnişin qəbuluna icazə veriləcəyi təqdirdə bütün stansiyalar fəaliyyətə başlamağa hazır vəziyyətdədir.

Baydendən AÇIQLAMA:

## ABŞ Çinlə müharibə etməyəcək

ABŞ Prezidenti Cozef Bayden söz verib ki, sələfi Donald Trampdan fərqli olaraq Çinlə ticarət müharibələrinə başlamayacaq. Bunun əvəzinə beynəlxalq qaydalar çərçivəsində dünyanın ikinci iqtisadiyyatı ilə rəqabət aparacaq. SİA xəbər verir ki, bu barədə xarici KİV-lər məlumat yayıb. Baydenin sözlərinə görə, iki ölkə arasında artan gərginlik əvəzinə rəqabət olmalıdır. ABŞ Prezidenti Çin lideri Si Cinpinlə görüşməsə də, onu yaxşı tanıdığını bildirib: “O, çox ağıllıdır”.

*Aysel Məmmədova*

# Qarabağın azadlığına ağlayan radikallar

**“Haqsız oturub, haqdan danışmaq” buna deyirlər. Bu gün belə nankorlar, satqınlar, cinayətkarlar çoxdur. Necə deyərlər, ağzını açanda bilirsən ki, səviyyəsi nə dərəcədir. Ən təəccüb doğuran isə, yerindən duran, Avropanın küçələrində sülənənlər özlərini ya “hüquq müdafiəçisi”, “siyasətçi”, ya da “demokrat, araşdırıcı jurnalist” adlandırırlar və gecəgündüz sosial şəbəkələrdən düşmürlər. Görünür, bəlkə də elə orada gecələyirlər.**

Belə olmasaydı ölkəmizdə hansı uğurlu nailiyyətləri “şidirdilər”, xüsusilə də dövlət başçımızın xalqı tərəfindən böyük məhəbbətlə əhatə olunduğunu, həmçinin dünya dövlətlərinin Prezident İlham Əliyevin diplomatik xarici siyasətinə həsəd apardığını eşitdikcə sağalmaz virusa tutulan “beşinci kalon”un erməniyə nökərçilik edən dələduz və satqınları - Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov, Qurban Məmmədov və...bu kimi parazitlər qaşınmağa düşürlər. Bu o fərdlərdir ki, xarici dövlətlərə müxtəlif yollar sayəsində həyasızlıq, şivənlik yolları ilə mühacirət edib öz ölkəsinə qarşı düşmən mövqeyi göstərsələr də nəticədə yaxşı cavablarını alırlar. Elə götürək Azərbaycanı vaxtilə Avropa Şurası və Parlament Assembleyasında təmsil edən sabiq deputat, müxalifətin “Mat Tereza”sı Gültəkin Hacıbəyliyə qurumun binalarına və tədbirlərinə ömürlük giriş qadağası qoyulduqdan sonra yenə də danışması, hələ də özlərinə “azərbaycanlı” deməleri, həyasızlığın son həddidir. Belə...

### Üzü tüpürcəklilər...

Avropa süləngəci olan, özünü dönö-dönə “hüquq müdafiəçsi” adlandıran Vidadi İskəndərli, Qənimət Zahid, Sevinc Osmanqızı, Leyla Yunus, Arif Məmmədov... kimilər gecə-gündüz həyasızcasına dövlət başçısının İkinci Vətən Müharibəsinin ilk gündən işğaldan azad olunan torpaqlarımızda, dövlət başçımızın dediyi kimi, planlı şəkildə bərpa-quruculuq işlərinin aparıldığını bildirərək bütün məmurlara “biz hamımız - məmurlar, millət vəkilləri xalqın xidmətçiləriyik” yanaşması ən əsas məsələ kimi vurğulaması, görəsən bu satqınları niyə narahat edir?

Düzü, sosial şəbəkələrdə belə “vətənşüvənləri” eşitməyi xoşlamıram. Ancaq erməniyalağı olan, nəşəli, dəmli sifətli bu “erməni dəyirmanına su tökənlərin” saatlarla dövlətin, xalqın ünvanına böhtanlar yağdırmasına, “ayılın, bu dövlət sizi uçuruma aparır. Bu dövlət sizlərə nə edib ki, arxasında durursunuz?”, - deyə Azərbaycan xalqını yenidən mitinqlərə çağırışlar etməsinə, artıq səbrim çatmır. Cavab verməmək olmur.

Əslində, 28 ildir ki, bu şərəfsizləri, cinayətkarların, satqın və nankorlar bu yoldadırlar. 28 ildir ki, erməniyə dayı, əmi, hətta ata deyən AXCP-nin baş çaqqalı, “sanitarkası” Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc osmanqızı, Qənimət Zaşid, Vidadi İskəndərli və... ətafında olan çaqallar nökərçilik edib, çünki mayaları budur, ancaq haraya qədər?

Baxın, 30 ilə yaxındır ki, işğalçı Ermənistan silahlı qüvvələri ardıcıl olaraq atəşkəsi pozaraq, dinc sakinlərə, yaşayış məntəqələrinə, və nəhayət Müzəffər Azərbaycan ordumuz tərəfindən təxribatının qarşısını alaraq, erməniləri öz yerlərinə - geri otuzdurması, Ermənistan silahlı qüvvələrinə məxsus dayaq məntəqəsi, ağır texnika və çoxsaylı hərbçilərinin məhv edərək, ələ keçirilməsi, nəhayət 44 gündə Qələbə Zəfərinə - Qarabağ Azərbaycandır və NİDASININ qoyulması qürurverici deyilmi? Bu cür igid, mərd hərbçiləri olan ordu alqışa, hörmətə, sevgiyə layiq deyilmi?

Ancaq bu gün sosial şəbəkələrdən Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Vidadi İskəndərli, Sevinc Osmanqızı və bu



kimi provakator qara qüvvələr bu qələbəyə kölgə salaraq, yenə də iblisxislətliliklərini nümayiş etdirməkdədirlər. “Korrupsiyanın, rüşvətxorluğun baş alıb getdiyini”,-deyirlər. Bəlkə özlərini keçdikləri o cinayətkar yollarını yadlarına salsınlar.

### Özlərinə “layiq” olduqlarını deyən Vətən”, “millət” satqınları bir geriyə baxsınlar...

Təəssüf ki, geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilməsə də tarix unudulmur. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəy: “Rüşvət alanda milyonlarla dollar alırsınız. Alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...”. Və bu gün sosial şəbəkələrdə dövlətin ünvanına özlərinə layiq olduqlarını deyən Vətənini, torpağını satan-satılan AXCP sədri Əli Kərimli, “Milli Şura” deyilən satqınlar yuvasına sədrlik edən, saçına, başına hörmət etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada təhlil edərək bu günkü uğurlara kölgə salmağa çalışmaları “həyasızlığın lap 100 faizidir”. Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: “Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir”.

Və bu satqın və şərəfsizlər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdı və alacaq da!

### “Torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır”

Dövlət başçısı Prezident İlham Əliyev bütün çıxışlarında və xalqa müraciətlərində torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsi olduğunu deyib: “Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi. Əlbəttə ki, tarixə qayıdıb nə ola bilərdi, nə olmaya bilərdi demək çox çətindir. Ancaq hər halda, torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır. Çünki 1992-ci ilin yaz aylarında hakimiyyət uğrunda mübarizə pik həddə çatmışdı. Azərbaycanda daxili çəkişmələr baş alıb gedirdi, xaos, böhran yaranmışdı, siyasi böhran yaranmışdı və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarmışdı. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı, Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi. Başqa cür ola da bilməzdi. İndi gənc nəsil xatırlamır, ancaq bilməlidirlər ki, o vaxt Azərbaycana kimlər rəhbərlik edirdi, hansı bilik sahibləri, hansı səriştə sahibləri. O adamların heç bir təcrübəsi yox idi. O adamlar - o vaxt rəhbərlikdə təmsil olunmuş adamlar, yüksək postlar tutmuş adamlar bir gün belə heç bir idarəyə, heç bir kiçik bir müəssisəyə rəhbərlik etməmişdilər. Onlar ölkəni, xüsusilə böhranlı vəziyyətdə olan ölkəni necə idarə edə bilərdilər? Amma onların vəzifə hərisliyi, tamahı, iştahası, görməmişliyi Azərbaycanı bax, bu vəziyyətə gətirib çıxardı”.

### “Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri”

Dövlət başçısı bildirib ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər: “Baxın, görün, Azərbaycanı o vaxt kimlər idarə edirdi?! Parlamentin sədri kiçik elmi işçi idi, özü də uğursuz bir elmi işçi idi. Dövlət katibi - komsomoldan çıxmış karyerist, özü də sonrakı mərhələdə öz liderinə xəyanət etmiş, onun kürsüsünə, kreslosuna göz dikmiş, onun ölümünə hamıdan çox sevinmiş və ondan sonrakı həyatını, sadəcə olaraq, xarici dairələrin idarəsi altında keçirən bir adam. Onlardan hansı idarəçilik gözləmək olardı? Onlardan hansı vətənpərvərlik gözləmək olardı? Hansı peşəkarlıq gözləmək olardı? Xarici işlər naziri. Heç bir dildə danışa bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər nədir? Sadəcə olaraq, turist kimi ora-bura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri. Baş nazir elmi kommunizm üzrə kiçik elmi işçi idi. Baxın, bu təzadlara baxın. Ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qabağa aparmağa məsul olan adam elmi kommunizm üzrə kiçik elmi işçi idi. Hansı idarəçilik, hansı islahatlar, hansı müdafiə qabiliyyəti təmin oluna bilərdi? Bizim dərdimiz və faciəmiz budur ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər”.

### “Xalq Cəbhəsi hakimiyyəti, əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır”

“Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır?”,-deyən dövlət başçısı bildirib ki, o vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən: “Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər”.

Bəli, bu gün bütün türk dünyası, dünya dövlətləri 44 günlük İkinci Vətən Müharibəsinin Qələbə Zəfərinin şahidi oldu və gördü. Prezident İlham Əliyev cənablarının dediyi kimi: “Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, biz dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik”.

Ancaq Vətən müharibəsində Azərbaycanın qələbəsinə hər imkanları ilə mane olmağa çalışan, bu gün isə xalqımızın bu şanlı zəfərinə ləkə vurmağa çalışanlar elə tarixin zibil yeşiyinə atılmalıdırlar. Bunu tarix və zaman tələb edir. Bunu xalqımızın və dövlətimizin mənafeyi, müqəddəs amallarımız tələb edir. Məhz ona görə də, Vətən, dövlət, xalq xainləri, düşmənə işləyən bu satqınlar yığnağı hüquqi çərçivədə də cavablarını almalıdırlar. Çünki ortada xalqımızın və dövlətimizin maraqları var və bu maraqlara qarşı çıxmaq Vətənə xəyanətdən başqa heç nə deyil!

***Rəfiqə HÜSEYNOVA***

# Koçaryanın məntiqincə, Rusiyanın dəstəyinə görə ödəmək lazımdır

## Ermənistanın siyasi gələcəyi böyük sual altında qalıb - çıxış yolu isə yoxdur

**Ermənistanın sabiq prezidenti, birinci Qarabağ müharibəsi dövründə işğalçılara liderlik etmiş, hətta bir müddət quldur rejimin "prezidenti" olmuş Robert Koçaryanın bu yaxınlarda "Sputnik Armeniya"ya müsahibəsi zamanı yenidən böyük siyasətə geri dönməsi ilə bağlı səsləndirdiyi bəyanatı erməni ictimai-siyasi rəyində birmənalı qarşılanmayıb. Xüsusilə, prezidentliyi dövründə və postunu Serj Sarqsyana təhvil verdikdən sonra Qarabağ cinayətkar klanını ölkə boyunca möhkəmləndirməyə müvəffəq olan Koçaryanın iqtidar sahiblənəcəyi halda, yenidən həmin siyasətini bərpa etməyəcəyinə isə kimsə zəmanət verə bilməz.**





### Koçaryan media və sosial şəbəkələr vasitəsi ilə özü ətrafında Azərbaycanda istehza ilə qarşılanan "xof" yaratmağa cəhd edir

Digər tərəfdən, onun bilavasitə Rusiyanın adamı olması, eləcə də Vladimir Putinlə dostluq əlqələrinin mövcudluğu da kimsəyə sirr deyil və hətta qatı-anti-rusiyaçı, yaxud sorosçu Nikol Paşinyanın sifarişi ilə həbsxanaya salınarkən belə, Rusiya prezidentinin onu ad günü münasibəti ilə təbrik etməsi də diqqətlərdən yayınmadı.

Lakin maraqlı məqamlardan biri də budur ki, Robert Koçaryan yaxın medialar vasitəsi ilə, xüsusilə Qarabağ mənşəli ermənilərin müxtəlif sosial şəbəkələrdəki fəaliyyətindən yararlanaraq guya (!) Azərbaycanda onun böyük siyasətə qayıdışından narahatlıqların yaranması ətrafında süni və gülünc hay-həşirlər saldırmaqdadır. Amma bunun belə omadığı, əksinə Koçaryanın iqtidara yiyələnəcəyi halda, Ermənistanın tamamilə dövlətçilik dayaqlarını itirəcəyi faktı daha çox görünməkdədir. Və bunu yalnız biz deyil, elə ermənilərin özləri də etiraf edirlər.

### "Koçaryan altruist deyil, heç patriot deyil, üstəlik dəli də deyil ki, ölkəyə nəyi isə geri qaytarsın"

Misal üçün, armenianreport saytı Koçaryanın bu yaxınlarda Moskvaya etdiyi səfərinə toxunub və qeyd edib ki, istintaq altında olan eks prezidentin Rusiyaya gedişinin məqsədi onun Ermənistandakı hakimiyyətini bərpa etmək məqsədi ilə yanaşı, həm də çoxdankı dostu Vladimir Putinlə görüşünə hesablanmışdı. Erməni saytı bu məsələdə Nikol Paşinyanı da hədəfə alaraq onu uzaqgörən olmadıqda suçlayıb. "Yeganə qalan budur ki, Nikol Paşinyanın uzaqgörənliyə sahib olmamasına sadəcə təəccüb edəsən", yazan armenianreort qeyd edir ki, axı necə ola bilər, baş nazir özünün zalım və təhlükəli rəqibinə Ermənistanı tərk etməyə izn versin: "Nə deyək, bu Paşinyanın və mövcud hakimiyyətin öz problemidir, bizə isə yaxın gələcəkdə hansı problemlərin gözlədiyini danışmaq qalır".

Göründüyü kimi, fakt budur ki, əgər Ermənistanda iqtidar dəyişikliyi baş verərsə belə problemlər həll olumamış qalacaq və erməni saytı həmin reallığı açıq-aydın ifadə etməkdədir. SİTAT: "Beləliklə, Robert Koçaryan Moskvadan geri qayıdan kimi dərhal müsahibə verdi və hər kəsin eşidəcəyi şəkildə elan etdi ki, böyük siyasətə qayıdır. O, "məxməri inqilabçıların" devrilməsi və dövlət kreslosunu geri qaytarması üçün özünün planlarını səsləndirdi. Koçaryanın məntiqincə, Rusiyanın dəstəyinə görə ödəmək lazımdır. Məhz Ermənistanın dövlətçiliyinin və müstəqilliyinin itirilməsi hesabına".

Armenianreport davam edir: "Beləliklə, Koçaryan bizə nə vəd edir? Əslində, heç nə! Ümumi hesabla heç nə! O, "artsaxı" geri qaytaracaq? Ancaq necə? Müharibə başlatmaqla? Axı biz keçən dəfəkindən sonra belimizi düzəltməmişik. Ölkədən yüz minlərlə miqrasiya etmişləri geri qaytarmağa nail olacaq? Halbuki onların böyük hissəsi məhz Koçaryan və Sarqsyanın idarəçilikləri zamanında Ermənistandan qaçıblar və çətin ki, vətənlərinə geri dönməklə həmin dəhşətləri üzərlərində hiss etməyi istəyəcəklər. Büdcəni oğurluq edilməmiş on milyard dollarlarla doldura biləcəkmi? Ancaq Koçaryan altruist deyil, heç patriot deyil, üstəlik də dəli də deyil ki, ölkəyə nəyi isə geri qaytarsın. Bəs o konkret olaraq nə təklif edir? Bu sualın cavabı Koçaryanın həmin müsahibəsində verilib".

"Rusiyaya tam hədəfli inteqrasiya geosiyasi nöqteyi-nəzərindən bir çox üstünlüklər verir. Burada ciddi inteqrasiyadan danışmaq lazımdır. Dünyada regionlaşdırılma gedir. Qobal proseslər digər regional inteqrasiyalaşmış proseslərlə dəyişilir və bu planda hesab edirəm ki, Ermənistanın Rusiya ilə birgə əməkdaşlığı barədə ciddi düşünmək lazımdır. İndikindən daha dərin", Koçaryan bəyan edib, deyə yazan armenianreport bir daha belə bir nəticə çıxarır ki, eks-prezident həmin fikirləri ilə Ermənistanın Rusiya qarşısında ödəməli olduğu bir sıra məsələlərin olmasına eyham vurur.

### "Ciddi inteqrasiya" Ermənistanın Rusiya tərəfindən udulması deməkdir"

"Ermənistanın KTMT və Avrasiya İqtisadi İttifaqına üzv olması Putinə və Koçaryan üçün azdır. Onlara lazımdır ki, bizim ölkə tamamilə müstəqilliyini və suverenliyini itirsin. "Ciddi inteqrasiya" Ermənistanın Rusiya tərəfindən udulması deməkdir. Bax, budur Robert Koçaryanın böyük siyasətə qayıdışı. Şübhəsiz ki, bizi qarşıda növbədənkənar parlament seçkiləri gözləyir. Seçkilərə həm mövcud iqtidarın, həm də müxalifətin ehtiyacı var. Ölkəmizin gələcək taleyi isə bizim hər birimizin necə səs verəcəyimizdən asılıdır. Ancaq bülletendə işarə qoyarkən bir dəqiqəlik düşünün: özünüzə, öz uşaqlarınıza və nəvələrinizə, ölkənizə hansı gələcəyi arzu edirsiniz...", armenianreport sonda yazıb.

Düzdür, baş nazir Nikol Paşinyan hətta öz partiyadaş deputatlarına olan inam və etimadını da itirmək üzrədir və o, bir müddət əvəll növbədənkənar parlament seçkiləri ilə bağlı irəli sürdüyü təklifini də geri çəkməli olub. Lakin proseslər göstərir ki, seçkilər istər-istəməz baş tutacaq və sonrakı hadisələrin proqnozlaşdırılması da elə bir çətinlik yaratmır.

Beləliklə, bu faktların özü də sübut edir ki, əslində Ermənistanın 90-cı illərdən hazırkı dövrə qədər bütün dövlət başçıları müharibələr, daxili qarşıdurmalar yaratmaqla sadəcə zaman baxımından irəliyə gedə biliblər, siyasi idarəçilik və inkişafdan geri qalma faktı isə ümumiyyətlə dəyişilməyib. Özü də hakimiyyətdə kimlərin olmasına baxmayaraq - istər Qarabağ klanı təmsilçiləri (halbuki ən çox hakimiyyət müddətində onlar olublar), istərsə də Ermənistan erməniləri ölkəni düşdüyü çamur və bataqlıqlardan xilas etməyə müvəffəq ola bilməyiblər. Həmçinin, siyasi liderlik institutunun olmaması, yeni siyasi simaların ortaya çıxa bilməməsi də sözügedən vəziyyəti hərtərəfli şəkildə nümayiş etdirməkdədir.

*Rövşən RƏSULOV*

***P.S. Bu günün Nikol Paşinyan iqtidarının bilavasitə Soros tərəfindən dəstəklənməsi, Robert Koçaryanın Rusiyanın seçimi olması, eləcə də müxalifətin vahid lideri Vazgen Manukyanın digər qüvvələrin namizədi kimi çıxış etməsi və əhatəsinə istənilən qədər kütləni toplaya bilməməsi həm də bir reallığı sübut edir - bu xalqın ümumiyyətlə liderləri olmayıb, olsa belə hansısa xarici qüvvələrin nökəri qismində çıxış ediblər. Hər halda, sözügedən analitikda get-gedə daha çox yox olmağa başlayan Ermənistanın gerçək mənzəri özünü kifayət qədər əks etdirməkdədir.***

# Saakyan: "Əlimizdən gələni etdik, amma alınmadı"



"Aprel döyüşlərindən sonra müharibənin yenidən başlaması üçün əlimizdən gələni etdik, amma alınmadı". SİA "tert.am" saytına istinadla xəbər verir ki, bunu Dağlıq Qarabağdakı keçmiş separatçı rejimin sabiq rəhbəri Bako Saakyan deyib. O bildirib ki, 5 il əvvəlki döyüşlərdən sonra separatçılar İrəvanla birgə hərəkət etmək üçün əlaqəli addımlar atmağı təklif ediblər: "Məqsədimiz diplomatiyada üstünlük qazanmaq idi. Ovaxtkı rəhbərliklə də görüşlər keçirdik, yeni hökumətlə də... "dqr"in təhlükəsizliyi, yenidən müharibənin başlamaması üçün təkliflər paketi hazırlamaq istəyirdik. Danışıqlar prosesində birgə mövqeyimizi təmin etməyi hədəfləyirdik. Çox səy göstərdik. Amma müharibənin qarşısını ala bilmədik".

*Aysel Məmmədova*

# İlk virus proqramı nə zaman və harada yaradılıb?



İnternet dünyası nə qədər çox faydalı məlumatla dolu olsa da, eyni zamanda, kompüter və telefonlarınız üçün təhlükəli olan proqramlarla zəngindir. Milyonlarla insanlara zərər vermiş bu təhlükələr haqqında geniş məlumat hazırladıq.

Kompüter virusları təxminən 1980-ci illərin əvvəllərində meydana çıxmışdır. "Kompüter virusu" termini 1984-cü ildə ABŞ-da keçirilən informasiya təhlükəsizliyi üzrə 7-ci konfransda Fred Koen tərəfindən işlədilmişdi. Ümumiyyətlə, hər virusun öz adı vardır. Məsələn, Cansu, Stoned, Michaelangelo, Brain, Einstein və s. kimi virus növləri daha məşhurdur.

"Creeper" proqramı dünyada ilk kompüter virusu sayılır. Onu 1971-ci ildə ABŞ Müdafiə Nazirliyinin Perspektiv Tədqiqatlar Agentliyinin (DARPA) ARPANET3 şəbəkəsinə xidmət göstərən əməkdaşı yazıb. "Creeper" müasir mənada başa düşülən kompüter vürusu olmayıb. Onun yaradıcısı mühəndis Bob Tomas sadəcə kompüterlər arasına "hərəkət edən" proqram yazmağa cəhd göstərmişdi. O, bu yolla kompüterlərə hansısa ziyan vurulmasının mümkünlüyünü təsəvvür belə etmirdi.

Kompüterin yaddaşına girən proqram "I'm the creeper, catch me if you can!" məlumatını gəzdirib dərhal digərinə yönəlməyə cəhd edirdi. Creeper TENEX əməliyyat sistemi ilə çalışan DEC PDP-10 kompüterlərində işləyirdi. Bu kompüterlər indiki ölçülərlə müqayisədə həddən artıq iri idi. Zəhlətökən və ümumiyyətlə, zərərsiz virusa qarşı "Reaper" proqramı işlənib hazırlanır. Buna o zamanın antivirusu desək ,yanılmarıq. Yeri gəlmişkən, həmin illlərdə kompüter proqramlarına münasibətdə "virus" sözü işlənmirdi. "Kompüter virusu" termin kimi sonradan meydana gəlib.

1983-cü ildə kaliforniyalı tələbə Fred Koen kompüter təhlükəsizliyi məşğələlərində öz- özünə artan və şəbəkəyə virus kimi yayılan proqram yaradır. Həmin proqram xüsusi təhlükəli deyildi. Fred Koen o zamandan "kompüter virusu" termininin müəllifi sayılır.

İndi virusların yayılması üçün ən əlverişli vasitə internetdir. 2000-ci ildə yaranan "yeni dövrün" ilk genişmiqyaslı virusu "I LOVE YOU" epidemiyasıdır. O, elektron poçt vasitəsi ilə yayılır. Məktub alan istifadəçi cəlbedici başlığa aldanır, onu açan kimi ziyanverici proqramla üzləşir. Yeri gəlmişkən, Fred Koen 1987-ci ildə sübut edib ki, kompüter viruslarını aşkarlayıb qeydə alan 100 %-lik alqoritm yaratmaq mümkün deyil.

# Erməni əsgəri Bakıdan "qaçırmaq" istəyən şəxs həbs edildi



Dağlıq Qarabağdakı döyüş əməliyyatları zamanı itkin düşən S.X. adlı əsgərin atasından rüşvət alan dələduz saxlanılıb. SİA xəbər verir ki, əsgərin atasından 1000 dollar alan A.A. adlı fırıldaqçı Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən yaxalanıb.

Onun əsgərin atasına xüsusi xidmət orqanlarında əlaqələri olduğunu və guya bunlar vasitəsi ilə əsgərin Bakı həbsxanalarından birində olduğunu öyrəndiyini söylədiyi bildirilir. O, əsgərin əvvəl üçüncü bir ölkəyə, sonra da Ermənistana göndərmək üçün xarici xidmət orqanları işçilərinə 3 min dollar rüşvət vermək lazım olduğunu əsgər atasına deyib. Dələduzluqda ittiham edilən cinayətkar artıq məhkəmənin qərarı ilə həbs olunub. İstintaq davam edir.

# Əli Kərimli cinayətkar cəbhənin sədridir

## Onun ətrafında toplaşanların hər birinin üzərində cinayət əməlləri var

***Əslində, özünü "AXCP sədri" qismində təqdim edərək, həm də "ana müxalifət lideri" kimi var-gəl edən Əli Kərimlinin ətrafının, daha dəqiq desək, yan-yörəsinin cinayətkar yığnağı olması barədə faktlar kifayət qədərdir. Bu faktlar indinin özündə də qalmaqdadır və söz yox ki, burada bir atalar misalını da xatırlatmaq yerinə düşərdi - dostunu göstər, sənin kim olduğunu deyim. Məhz bu kontekstən çıxış edərək bəzi xatırlatmaları etmək əslində həmin fikri yeniləmiş olardı. Başlayaq elə Əli Kərimlinin özündən.***




### Çuğulluq edən komsomolçu və "KQB" agenti

Bu adam hələ tələbə olduğu illərdə, sovet dönəmlərində komsomolçuluq fəaliyyəti göstərərkən, həm də universitetin baş çuğulçusu rolunu da oynayıb. İşi-gücü milli vətənpərvərlik ruhunda, düşüncəsində olan tələbə yoldaşlarını, müəllimlərini (elə Elçibəyin özünü də-R.R.) satmaqla "KQB"yə agentlik edib. Əbəs deyil ki, bu gün Elçibəyin portreti altında manipulyasiyalar edib, özünü "milli mücadiləçi" adlandıran Əli Kərimlini məhz Elçibəy "komsomolçu" adlandırıb, bu vasitə ilə onun əməllərini ifşa edib.

Beləliklə, Elçibəyin ölümündən sonra AXCP-ni işğal edən Əli Kərimli sonradan onun strukturlarına özü kimi cinayətkarları, xəyanətkarları və digər ictimaiyyətə zərərli ünsürləri yığmağa başladı. Bəs kimlərdir onlar?

### Oğrular, narkotik satanlar, ailəsinə zorakılıq edən mazoxistlər, övladları imtina olunanlar, xuliqanlar, terrorçular, anasını döyənlər, manyaklar və daha kimlər-kimlər...

AXCP sədrinin müşaviri Qabil Məmmədrzayev 200 min manatlıq oğurluq edən şəxsdir və bu cinayət əməli onun üzərində qalmaqdadır. AXCP üzvü Təzəxan Mirələmlinin atası vaxtilə 5 kq. narkotiklə tutulub və cinayət əməlinə görə qanun qarşısına çıxarılıb. Əli Kərimlinin sürücüsü Paşa Umudov narkotik ticarəti ilə məşğul olmuş şəxsdir, o da bu cnayətkar əməlinə görə məhkəmə qarşısına çıxarılıb.

AXCP sədrinin müavini olmuş Fuad Qəhrəmanlı həyat yoldaşını, qızını vəhşicəsinə döyən mazoxist və qəddar fərd kimi tanınır, hətta övladları belə ondan bu əməllərinə görə imtina ediblər. AXCP rəyasət heyətinin üzvü Ayaz Məhərrəmli ailəsindən ayrılıb və uşağına aliment verməyən adam kimi tanınır. Bir insan ki, öz övladından imtina edirsə, ondan hansı müsbət cəhətləri gözləmək olar?

Əli Kərimlinin mühafizəçilərindən Ruslan Əmirov xuliqandır, Niyaməddin Əhmədov isə terrorçudur. Asif Yusifli, Şəmsi Kəsəmənli, Məmməd İbrahimin oğlu da dövlət çevrilişinə cəhd edən, parlamentin binasını yağmalayan cinayətkarlar sırasında yer alır.

AXCP sədrinin media və sosial şəbəkə PR-nı quran Fatimə Mövlamlı dəfələrlə anasını döydüyünə görə polisə düşüb, eyni zamanda qanunsuz küçə yürüşlərində dövlət əleyhinə şüarlar səsləndirib, xüsusilə qeyri-ənənəvi cinsi həyat yaşaması barədə də məlumatlar var. Qənimət Zahiddən isə ümumiyyətlə məlumatlar bolluğu ilə danışmaq olar. Onun eyş-işrət məclislərindən tutmuş, dövlət maraqlarını satmasına qədər faktları kifayət qədər çoxdur.

Və ən nəhayət, siyasi kimliyi, ümumiyyətlə, hansı məzhəbə xidmət etdiyi bilinməyən Tofiq Yaqublu aqressiv xəstə və vintaçanla insanlara xəsarət yetirən manyakdır. Xüsusi hay-şivənliyi ilə seçilir.

Əslində, sözügedən siyahıda çox cəbhəçilərin adlarını qeyd etmək olar. Özü də ayrı-ayrılıqda! Lakin sual yaranır ki, əcəba, nəyə görə Əli Kərimlinin ətrafında normal düşüncəyə sahib, sağlam təfəkkürlü fərdlər cəmləşməyiblər? Sanki Əli Kərimli partiya sədri deyil, bir cinayətkar ünsür olaraq mafiya krtelinin bossudur. Halbuki, onun məqsədi siyasi hakimiyyətdir və iraq olsun, o hakimiyyətə-filana yiyələnərsə, görün bütövlükdə ölkənin və xalqın başına hansı oyunlar açıla bilər! Hər halda, yuxarıda qeyd edilən atalar misalı da məhz bu reallığı tam çılpaqlığı ilə əks etdirməkdədir.

*Rövşən RƏSULOV*

# "44 günlük müharibə radikal müxalifətin də varlığına son qoydu"

**"Azərbaycanın qələbə ilə başa vurduğu 44 günlük müharibə ölkə əhalisi arasında ictimai rəyi birmənalı şəkildə qütbləşdirdi. Ölkə əhalisi büsbütün müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşdi, onu birmənalı şəkildə dəstəklədi. Bu birlik, bu həmrəylik ölkədə yad fikirliliyə, müxalif düşüncəyə yer saxlamadı". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini, Media eksperti Müşfiq Ələsgərli deyib.**



Onun sözlərinə görə, insanlar onlara torpaq qaytaran, 30 illik həsrətlərinə son qoyan, müharibəni ən az, minimum itkilərlə tamamlayan bir Komandanı qoyub, 27 il ərzində yalan danışan, işi -gücü ölkəni, iqtidarı şərləməkdən ibarət olan siyasi çevrəyə heç vaxt dəstək verməz: "Qısa desək, 44 günlük müharibənin nəticələri erməni şəbəkəsi kimi, Azərbaycan içindəki radikal, permanent müxalifəti də məyus etdi, onların varlığını sona yaxınlaşdırdı. Hiss olunur ki, indi radikal düşərgə təmsilçiləri həyacanlıdırlar, axtarışdadırlar, özlərini necə xilas etmək, varlıqlarını necə sürdürmək üzərində çalışırlar. Bu məqsədlə yalançı faktlar uydurmaqdan, şər yaxmaqdan, ölkənin qələbəsini şübhəyə almaqdan da çəkinmirlər. Hər gün bir neqativ hadisə uydurur, sosial şəbəkələrdə paylaşırlar, insanların fikirlərini çaşdırmaq, yanlış yönə yönləndirmək istəyirlər. Bir sözlə, onlar ölkədəki qələbə ovqatını yox edib insanları yenidən neqativə yükləmək istəyirlər. Əlbəttə, bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da müəyyən problemlərin mövcudluğunu kimsə danmır. Ölkə müharibədən çıxıb, müharibənin törətdiyi fəsadlar var, bunları aradan qaldırmaq lazımdır və qaldırılır da. Ölkə vətəndaşları da problemlərin həlli üçün dəstək olmalıdırlar. Müharibə dövründə olduğu kimi, həmrəylik göstərmək, çiyin-çiyinə verib müharibədə qalib gəlindiyi kimi, indi də həmrəylik göstərib müharibənin yaratdığı problemlərin aradan qaldırılmasına çalışmaq lazımdır. Radikal düşərgənin fərqi odur ki, onlar problemlərin həllinə yox, yeni problemlərin yaranmasına və ya mövcud problemlərin daha da dərinləşməsinə çalışırlar. Amma ötən 27 il ərzində olduğu kimi, indi də heç nəyə nail ola bilməyəcəklər. Zaman kimin kim olduğunu isbatladı, xalq hər kəsin məharətini gördü".

*Gülyana*

# Bir nazirin monoloqu

**Pay atonnan! Bu nə qəliz mətndi əə. Yüz dəfə demişəm bu "donqili"yə ki, yazanda mürəkkəb cümlələrlə yazma, çox elmi, siyasi, iqtisadi terminologiyadan istifadə eləmə. Həm çoxunu başa düşmürəm, həm də tələffüz edə bilmirəm.**



*Elçin Bayramlı*

**Sonra jurnalistlər başlayırlar məni lağa qoymağa ki, bu adam "kolxoznik"dir, niyə nazir işləyir.**

Bu adamı qohumdu deyə işə nahaq götürdüm, bilsəydim küçədə işsiz qalan savadlı kardlardan birini götürərdim. Bunu da başqa nazirliyə düzəldərdim qarşılıqlı razılıq əsasında. O nazirin də bir qohumunu mən götürərdim işə, qurtarıb gedərdi, heç kim də deyə bilməzdi ki, biz qohumbazlıq edirik...

Tərs kimi bu beynəlxalq konfrans çox ciddi mövzudadır, bütün dünyanın diqqəti burda olacaq. Yaxşı, tutaq ki, çıxışın mətnini birtəhər oxudum, amma fasilədə jurnalistlər cumacaqlar üstümə, "şpitilni" suallar verəcəklər. Gəl indi vəziyyətdən çıx. Nə ola ağzından bir "quş" buraxasan. Pay atonnan... Bir həftə mətbuatda, sosial şəbəkələrdə rüsvay edəcəklər məni.

Bunlar məni qaralayıblar elə, qəzetdə-jurnalda yazırlar ki, bəs 15 ildən çoxdur nazir işləyirsən, artıq qocalmısan, çıx pensiyaya, qoy bir az da gənclər işləsin. Mən ölüm, heç hənanın yeridir?

Əvvəla, məndən də çox nazir işləyən adamlar var, onlara niyə demirsiniz? İkincisi, qoca nöş oluram, Məşədi İbadın sözü olmasın, min cavana dəyərəm. Üçüncüsü də ki, hansı köpəyoğlu könüllü şəkildə belə vəzifədən imtina edər?

Bəzi qəzetlər yazırlar ki, bəs bunun filan yerdə villaları, bahalı maşınları, böyük şirkətləri var. Hələ çoxunu bilmirlər ha, Hind okeanındakı şəxsi adadan, təyyarədən və yaxtadan xəbərləri yoxdur, gör onları da öyrənsələr, nə qalmaqal salarlar?

Ay balam, nə istəyirsiniz məndən? İndi hansı dövrdür ki, nazir gedib adi fəhləylə eyni binada yaşasın, ictimai nəqliyyatdan istifadə eləsin, eyni restoranda nahar eləsin, eyni sanatoriyada dincəlsin filan.

Bunlara bax haa, mən ölüm, guya mənim uşaqlarım bunlarınkı ilə eyni bağçada, məktəbdə, universitetdə təhsil, tərbiyə almalıdır, bunlar kimi metroya-zada minməlidir, ucuz produkt, palçıq kimi zavod çörəyi yeməlidir. Ay siz öləsiniz...

Sovet hökuməti elə buna görə dağıldı də. Hərə öz yerini bilməlidir...

Gedim kostyum kolleksiyama baxım görüm bir əməlli şey tapa bilirəmmi. Andıra qalmış bir deyil, iki deyil, 50-dən çoxdur. Bax, bu "Pyer Kardin" xoşuma gəlir, keçən dəfə Parisdən 15 minə almışdım, o birilərə baxanda elə də bahalı deyil, amma çox yaraşır mənə.

Bu saatı da belə tədbirlərdə taxa bilmirəm, jurnalstlər nayezd eləyib yaxından çəkirlər, sonra internetə qoyub hay-həşir salırlar ki, bu adam 2 min manat maaşla 200 minlik saatı necə almışdır. Özü də gündə bir bahalı saat taxır.

Bu arvad da məni lap boğaza yığıb. Həftə səkkiz, mən doqquz xarici sanatoriyalardadır. Evdə axtardığımı da tapa bilmirəm. Qısqandığından özü burda olmayanda qulluqçuları da buraxır evlərinə ki, birdən...

Gedib özümdən 5 yaş böyük qızla evlənəndə bilirdim ki, belə olacaq. Nədi-nədi filan nazirin qızıdır. Mənim əqidəmə görə, kişi arvaddan neskolko da olmasa, xotya bı 3-4 yaş böyük olmalıdır, həm də gərəkdir ki, atası vəzifəcə səndən aşağı olsun. Yoxsa ona sözün keçməz. Amma neyləyim kişi zorla evləndirdi ki, nazir qızıdır.

Hələ bu kiçik oğluma bax, sən Allah. Oğraş gedib yarım milyonluq maşınla şəhərdə lotuluq edir. Videosunu çəkib qoyurlar internetə, döşəyirlər qabırğama ki, guya mən lap qudurmuşam. Heç sözdü, mən ölüm? Aman-zaman bir sonbeyişim var, indi ona "kakoy ni bud" 50 minlik maşın alası deyiləm ha. Uşaq üzümə də baxmaz ey.

Əsəbiləşdim ee lap, yaxşısı budur, bir siqar çəkim. Yaxşı ki, keçən dəfə Kubadan dənəsi 50 dollardan gətirtdiyim siqardan qalıb, görüm hara qoymuşam... Deyəsən, 4-cü mərtəbədəki kabinetimdə qalıb. Ev də ev deyil ey, Allah göstərməsin, elə bil oteldir, eni-uzunu hündürlüyü bilinmir. Arvad evdə olanda liftlə çıxmağa qoymur ki, hərəkət elə, şişirsən getdikcə. Yaxşı ki indi evdə yoxdur, yorulmuşam ey, gərək liftlə çıxım.

Öz aramızdı, yaşlanıram haa, daha işləməyə də taqətim qalmayıb. İşləmək deyəndə onsuz da elə sən deyən işləmirəm. O gün prezident müşavirədə abrımı ətəyimə bükəndən sonra, düşündüm ki, lap ağını çıxarmışam. İclasda görəydiniz, mən tər tökəndə, o birilər necə sevinirdilər. O qədər göz dikən var ki yerimə. Söz verdim ki, nöqsanları tezliklə düzəldəcəm, indi gərək başlayım doğru-düzgün işləməyə.

Nə isə, daha gecdir, düşüm zirzəmidəki saunada bir az istirahət eləyim, sonra yatım. Mühafizəçi və xidmətçi dəstəsinə də gərək tapşırım səs eləməsinlər. Bu neçə hektarlıq bağda neçə-neçə nadir heyvan növü var, amma gör birinin səsi çıxırmı, amma o delfinlə krakadil lap həyasızdırlar, yaman səs salırlar, başıma düşür.

Arvad elə bil burda zoopark açıb. Nə qədər adam acından ölür dünyada, biz bunlara nələr yedirdirik, o dünyada dərimə saman təpəcəklər. Bir dəli şeytan deyir, hamısını sat, puluna yoxsullara yardım elə, xəstəxana tik, məktəb aç. Amma onda da sərvətim azalır, dostlarış yanında biabır oluram, prestijim aşağı düşür...

Nə isə, yuxum gəlir... bu məsələni konfransdan sonra bir yaxşıyaxşı fikirləşərəm...

# Bozlaşan ölkəmizi necə yaşıllaşdırmalı?

**Son 30 ildə ölkə meşələrinin sahəsi kəskin azalıb, paytaxtda isə əhalinin sayı 2 dəfə artsa da, yaşıllıq sahəsi 2 dəfə azalıb**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Əkinçilik və maldarlıq formalaşmamışdan əvvəl dünyanın quru ərazisində meşələrin payı 56 faiz təşkil edirdi. Hazırda bu göstərici 30 faizdən aşağı düşüb, yəni 2 dəfəyə yaxın azalıb. Hazırda dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiyanın, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb. Keçən il dünyanın ən böyük meşə sahələrdə (Amazon, Sibir, Avstraliya, Kaiforniya və s) baş verən yanğınlarda çox nəhəng meşəliklər məhv oldu. Getdikcə planetimizdə yaşıllıq sahələrinin payı azalır ki, bu da çox ciddi ekoloji böhranlara gətirib çıxara bilər.

XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olub. Hazırda bu göstərici 11 faiz təşkil edir. Bu rəqəm Rusiyada 44%, Latviyada 41%, Gürcüstanda 39% təşkil edir.

Son 30 ildə ölkəmizin meşə təsərrüfatı xeyli itki verib. Belə ki, 90-cı illərin əvvəllərindən başlayaraq uzun müddət regionlarda təbii qazla təminat olmadığından meşələrin, yaşıllıqların qırılması baş verirdi. Bundan başqa, Ermənistan tərəfindən işğal olunan Qarabağ zonasında meşələrin çoxu qırılıb satılırdı. Hazırda Azərbaycanda meşələrin payı 10 faiz civarındadır ki, bu da dünyada aşağı göstəricilərdən sayılır. Paytaxtımız Bakıda da yaşıllıq sahələri son 30 ildə 2 dəfə azalıb.

Qeyd etmək lazımdır ki, son 30 il ərzində əhali və ağac emalı müəssisələri tərəfindən meşə ehtiyatlarına təzyiqin arması müşahidə olunur. Respublikanın mərkəzində sipər rolunu oynayan Kürqırağı Tuqay meşələrinin 80 %-i məhv olub; dağ və dağətəyi meşələr sistemsiz qırılıb sıradan çıxır. Təbii bərpa edilmə imkanları ciddi surətdə məhdudlaşır (qanunsuz olaraq mal-qara otarılması, normadan artıq antropogen təsir) və nəticədə Azərbaycanın əvəzedilməz yaşıl örtüyünün gələcəyi itirilmə təhlükəsi qarşısında qalır.

Bir neçə il əvvəl Ekoloq Jurnalistlər Birliyi Beynəlxalq Vəhşi Təbiəti Mühafizə Fondunun dəstəyi ilə bir layihə keçirirdi. Bu sətrilərin müəllifi də həmin layihədə iştirak edirdi. Meşələrdə, qoruqlarda monitorinq apardıq, bəzi problemləri qeydə aldıq. Məsələn, meşələrdə araba və maşınlarla odun daşıyanlara rast gəldik, onların çoxu qurumuş deyil, sağlam ağaclar idi. Bəziləri hansısa arayış göstərərək bunu məktəblər və bağçalar üçün apardıqlarını bəhanə edirdilər, halbuki çoxu satış məqsədilə kəsilir.

Bölgələrdə, xüsusilə də kənd yerlərində heyvanların otarılması zamanı ana təbiətə, əsasən də meşələrə ciddi zərər dəyir. Meşələrdə otarılan heyvanlar yerdən qalxan kiçik pöhrələri yeyirlər, nəticədə meşələrin yenilənməsi baş vermir, müəyyən müddətdən sonra yaşlı ağaclar quruyur, yeniləri isə qalxmır, nəticədə meşələr seyrəlir, çılpaqlaşır və tədricən sıradan çıxır. Azərbaycan onsuz da ərazisinə görə meşə sahəsinin ən az olduğu ölkələrdəndir. Bunun qarşısı alınmasa, tezliklə olan-qalan meşələr də yoxa çıxacaq.



Qeyd etməliyik ki, son 10-15 ildə həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də Heydər Əliyev Fondu tərəfindən kütləvi aşac əkmə kampaniyaları həyata keçirilib, müxtəlif ərazilərdə milyonlarla yeni tinglər əkilib. Lakin bu işi davam etdirməyə ehtiyac var. Həm də təkcə dövlət səviyyəsində yox, fərdi və ictimai səviyyədə belə işlər görülməlidir.

Şəhər mühitinin rahatlığının yüksəldilməsində və çirklənməsi səviyyəsinin aşağı salınmasında yaşıllığın böyük rolu var. Belə ki, şəhərdə (və ya hər hansı yaşayış məntəqəsində) yaşıllıqların salınması, ağacların əkilməsi, bağların, parkların yaradılması həm havanın təmizlənməsinə, həm ərazinin abadlaşdırılmasına, həm də insanların istirahəti üçün gözəl məkanların çoxalmasına müsbət təsir göstərir.

Çox təəssüflər olsun ki, son vaxtlar bu yaşıllıqların, xüsusilə də, ağacların kəsilməsi, məhv edilməsi faktları ilə tez-tez qarşılaşırıq. Bu sahədə mövcud olan problemlərin həlli, insanların ekoloji maarifləndirilməsi çox vacibdir.

Son 10-15 ildə ölkənizin inkişafı göz qabağındadır. Şəhərlərimiz abadlaşır və müasirləşir. Gözəl park və xiyabanlar, geniş prospektlər, möhtəşəm və modern binalar salınır. Amma eyni zamanda, iri şəhərlərdə əhalinin sıxlığı, çoxlu sayda avtomobillərin havaya buraxdığı zərərli maddələr, yaşıllıqların bəzi yerlərdə məhv edilməsi, ağacların vaxtında suvarılmaması, habelə bilərəkdən kəsilməsi və məhv edilməsi faktlarını da görməmək mümkün deyil.

Əlbəttə, son illərdə Bakıda xeyli abadlıq işləri görülüb, yaşıllıqlar, parklar salınıb. Lakin hələ də yaşıllıq səviyyəsi arzulanan həddə deyil. Sovet dövründə- 80-ci illərdə Bakıda yaşıllığın ümumi həcmi 15-16 min hektar təşkil edib, hazırda isə təxmini hesablamalara görə bu rəqəm 7-8 min hektar təşkil edir. Bu müddətdə paytaxtda əhalinin sayı 2 dəfə artıb, yaşıllıq sahəsi 2 dəfə azalıb, demək problem 4 dəfə kəskinləşib.

Buna görə də, paytaxtda və ətrafında böyük yaşıllıq kampaniyaları keçirilməlidir, bütün mümkün yerlərdə ağaclar əkilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Heydər Əliyev Fondundan başqa bu işi görən yoxdur. Bu işə ictimai təşkilatlar da maraq göstərməlidirlər. Ekoloji qeyri-hökumət təşkilatları fondlardan aldıqları qrantların müqabilində faydasız salon tədbirləri keçirməkdənsə, praktiki faydalı işlə məşğul olmalı, ağacəkmə kampaniyaları təşkil etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi belə təşəbbüsləri dəstəkləyir və belə müraciətlər olduqda tinglərlə təmin etməyə söz verib. Lakin bildiyimə görə, müraciətlər çox azdır.

Bakıda əsas ekoloji böhran yaşıllıqların və ağacların məhv olması ilə bağlıdır. Burada əsas problemlərdən biri də odur ki, Azərsu ASC Bakıda bina həyətlərində, məhlələrdə olan su kranlarının çoxunu ləğv edib. Nəticədə artıq minlərlə ağac quruyub, məhv olub. Bunun qarşısı alınmasa, yaxın müddətdə paytaxtımızın ağacsız səhra şəhərinə çevriləcəyinə şübhə yoxdur.

Mövcud ağacların saxlanması sahəsində vəziyyət daha çətindir. Bəzilərini külək aşırır, bəziləri də müxtəlif səbəblərdən quruyur. Ağac əkməklə iş bitmir, bundan sonra onlara qulluq edilməyəndə, vaxtında suvarılmayanda çoxu əmələ gəlmir, çünki Bakıda torpağın keyfiyyəti də zəifdir, çox az növdə ağac bu torpaqda, bu iqlimdə yetişə bilir. Ona görə də, hansı tinglərin əkilməsinə xüsusi diqqət verilməlidir, daha çox oksigen verən həmişəyaşıl, dözümlü ağaclar əkilməlidir.

Yeni binaların, yaşayış komplekslərinin tikintisi zamanı onların tutduğu sahəyə müvafiq olaraq yaşıllıq sahəsi şərt kimi qoyulmalıdır. Sakinlər isə binaların həyətlərində boş yerlərdə ağac əkilməsinə təşəbbüs göstərməlidirlər. Yəni, bu işdə həm dövlət, həm cəmiyyət fəal olmalıdır.

Bir çox hallarda aparılan tikinti işləri zamanı yaşıllıqlar məhv edilir. Gecəylə ağcları kəsib aparırlar. Kəsmək mümkün olmadıqda isə, dibinə turşu və ya digər kimyəvi maddələr tökərək qurudurlar. Artıq hamı bilir ki, bir ərazi hasara alınıbsa, orada mütləq bütün ağacları gecə ikən kəsəcəklər. Bəzi hallarda bu faktlar mediaya, sosial şəbəkələrə çıxanda problemin qarşısı alınır, cərimələr edilir. Lakin heç də bütün hallarda məsələ ictimailəşdirilmir. Çünki vətəndaşlarımızın bir çoxunda ictimai məsuliyyət yoxdur. Düşünürlər ki, "mənə nə, kim kəsir kəssin".

Bunun qarşısının alınması üçün çox ciddi cərimələr və adekvat cəzalar tətbiq olunmalıdır. 3-5 min manat cərimə ilə poblem həll olunmaz. O ərazidə obyekt tikən şəxs ordan ildə 100 min qazanc götürəcəksə, onun üçün bu 3-5 min manatı ödəmək problem deyil. Yaxşı olardı ki, cərimələr 10 dəfə artırılsın, kütləvi ağackəsmə zamanı isə əmlakı müsadirə olunmaqla həbs cəzası verilsin. Əgər ETSN gec xəbər tutubsa və ağaclar artıq kəsilibsə, şirkəti cərimə edib, orada bina tikməsinə imkan yaratmaq olmaz. Cərimədən sonra həmin ərazidə bu şirkətin yaşıllıq salması və 5 il müddətinə ona qulluq etməli olduğu haqda qərar çıxarılmalıdır. Bu başqalarına da dərs olar. Yalnız bu yolla bu "yaşıl terror"un qarşısını almaq mümkün olar.

Sakinlər isə ayıq və məsuliyyətli olmalı, belə faktlara rast gələn kimi, dərhal sosial şəbəkələrdə, mətbuatda yaymalıdırlar. Yalnız bu yolla "yaşıl soyqırım"ın qarşısını almaq olar.

Paytaxtımızda və onun ətrafında boz, çılpaq ərazilər çoxdur. Məsələn paytaxtımızın cənub girişi olan Yeni Salyan şossesinin ətrafı (Bibiheybət məscidindən Su İdmanı sarayınadək olan hissə) bərbad haldadır. Boz səhra ərazisi, neft buruqları və köhnə xaraba tikililər. Paytaxta daxil olan adam üçün Bakı haqda ilk təəssürat çox pis başlayır. Burada böyük yaşıllıq sahəsi, park salmaq üçün imkan var. Təəssüf ki, bununla heç kim maraqlanmır. Bu ərazi ARDNŞ-in balansındadır, lakin şirkət uzun illərdir bu hissəni abadlaşdırmaq istəmir. Ərazidəki neft buruqlarının da çoxu istifadə olunmur. Digər ərazilərdə də belə yerlər varməsələn Keşlə, Dərnəgül, Böyükşor, Binəqədi və s. Bu ərazilərdə yaşıllıqlar, parklar salınmalıdır.

Ümumiyyətlə, yaşıllıqların salınması, meşələrin bərpası üçün xüsusi Dövlət Proqramı qəbul olunmasına ehtiyac var. Qlobal ekoloji böhranların gözlənildiyi bir vaxtda ölkəmizi təbii məkana çevirmək əsas vəzifələrimizdən biri olmalıdır.

**Elçin Bayramlı**

ANALİZ

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

10 fevral

QARABAĞ AZƏRBAYCANDIR!

## Daha üç həkim Maradonanın ölümünə görə istintaqa cəlb olundu

Əfsanəvi futbolçu Dieqo Maradonanın ölümü ilə bağlı istintaq davam edir. Qol.az "Marca"ya istindən xəbər verir ki, Argentina Məhkəmə Xidməti işə cəlb olunan şəxslərin sayını artırıb. Maradonanı onun ölümündən bir neçə ay əvvəl müalicə edən psixoloq Karlos Diaz və daha 2 tibb işçisi ilə bağlı araşdırmalar aparılır. Onlar səhlənkarlıqa günahlandırılırlar. Qeyd edək ki, Maradona 2020-ci il noyabrın 25-də ürək tutmasından dünyasını dəyişib.



## "Qalatasaray" kolumbiyalı futbolçu transfer edəcək



"Qalatasaray" heyətinə yeni futbolçu qatmaq niyyətindədir. Bu barədə nüfuzlu "Sport-express" nəşri yazır. Yazıda qeyd olunur ki, "Aslanlar" Meksika "Leon"undan Yayro Morenonu transfer etməyi planlaşdırır. 25 yaşlı müdafiəçinin hazırkı klubu ilə müqaviləni uzatmaq istəmədiyi və komandanı tərk etmək niyyətində olduğu bildirilib. Kolumbiyalı oyunçu Avropada çıxış etmək istəyir. Qeyd edək ki, Moreno bu mövsüm 13 matç keçirib.

## Saraydan ayrılmasaydılar...

Ötən il kral sarayından ayrılan şahzadə Harri və Meqan Markl cütlüyü yenidən gündəmə gəliblər. Axşam.az xarici KİV-ə istinadən bildirir ki, onlar kraliça II Yelizavetanın planını pozublar. Bu haqda Şahzadə Harri ilə qardaşı Uilyam arasındakı gərginliyi qələmə alan yazıçı Robert Leysi məlumat verərək, kral ailəsinin sirrlərini açıb. Belə ki, Harri və Meqan sarayı tərk etməzdən əvvəl II Yelizaveta onları Cənubi Afrikaya göndərmək istəyib. Lakin sözügedən ölkədə yaşamağa etiraz edən cütlük tez bir zamanda "Megxit" adlı müqavilə imzalayaraq kraliçanın planını pozub və saraydan ayrılıb. Qeyd edək ki, II Yelizaveta da evliliyin ilk illərində həyat yoldaşı Fliplə bir müddət Cənubi Afrikada yaşayıb.



## Qara gavalı bağırsağın xərçəng şişindən müdafiəsini yaxşılaşdırır

Qara gavalı qurusunun müntəzəm istifadəsi bağırsağın fəaliyyətini yaxşılaşdırır və xərçəng də daxil olmaqla onu xəstəliklərdən qoruyur. Xarici diyetoloqlar Erin Kenni və Ceymi Miller "Shape" portalında qara gavalının bağırsaq sistemi üçün faydalarından bəhs edilər. AZƏRTAC xəbər verir ki, mütəxəssislərin fikrincə, bu quru meyvə bağırsaqların peristaltikasına və boşalmasına müsbət təsir edir.

"Quru gavalı qəbizliyin qarşısını alan yüksək sellüloz tərkibli məhsuldur. Bu quru meyvənin tərkibi, həmçinin sorbitol və xlorogen turşusu ilə zəngindir", - deyə ekspertlər izah edirlər.

Alimlər quru gavalının bağırsağın xərçəng şişindən müdafiəsini yaxşılaşdırmasını onun tərkibindəki mikroelementlərin antioksidan təsiri ilə əlaqələndirirlər. Bundan əlavə, quru gavalı hüceyrələri zədələyərək bədxassəli törəmələrin artmasına səbəb olan iltihab prosesinin azalmasına da kömək edir.

Mütəxəssislər qara gavalının tərkibindəki manqanın, eləcə də misin iltihab prosesi ilə əlaqəli zədələrdən sağlam hüceyrələri necə qoruduğunu izah ediblər. Onlar, həmçinin əlavə ediblər ki, bu quru meyvənin tərkibindəki antosiyan maddələr yoğun bağırsaqda xərçəngin inkişaf etmə riskini azaldır.



Diyetoloqlara görə, əks göstəriş olmadığı təqdirdə, gündə bir və ya iki quru meyvə yemək optimal sayılır. Mütəxəssislər qara gavalı qurusunun digər əhəmiyyətli üstünlükləri sırasında onun ürəyin fəaliyyətinə müsbət təsir göstərməsi ilə yanaşı, sümükləri möhkəmləndirməsini də qeyd ediblər.

## İdman gimnastikası üzrə Avropa çempionatı azarkeşsiz keçiriləcək

**Bu il İsveçrədə keçiriləcək idman gimnastikası üzrə Avropa çempionatı tamaşaçısız keçiriləcək. Bu barədə "Avropa Gimnastikası"nın mətbuat xidməti məlumat yayıb.**



Məlumatda bildirilib ki, yerli Təşkilat Komitəsinin rəhbəri Katrin Amaker bu qərarın idmançıların sağlamlığına görə qəbul edildiyini vurğulayıb: "Tribunaların boş olması, eləcə də, azarkeşlərin mübarizəni yalnız evdən izləyə biləcəkləri üçün kədərləndik. Ancaq sağlamlıq hər şeydən vacibdir". Turnir Bazeldə aprelin 21-25-də təşkil ediləcək. Satılmış biletlər üçün bütün pullar geri qaytarılacaq.

## Bioloqlar: İqlim dəyişmələrində meşələr gözlənilməz rol oynayır



**ABŞ-ın Qərbi Virciniya Universitetini təmsil edən bioloqlar müəyyən ediblər ki, meşələrin udduğu karbon qazının miqdarı əvvəllər güman ediləndən xeyli çoxdur. Bu o deməkdir ki, Yer kürəsi atmosferinin nizamlanmasında meşələr daha mühüm rol oynayır. Bu məlumatlar PNAS jurnalında dərc edilib.**

**Bir qrup alimin apardığı araşdırmalar nəticəsində məlum olub ki, son 100 ildə atmosferdə karbon qazının artması nəticəsində ağacların istifadə etdiyin suyun səmərəsi artıb. Fotosintez prosesində udulan karbon qazının ağaclardan buxar şəklində ayrılan suyun miqdarına nisbəti də dəyişib.**

**Alimlər 1901-ci ildən 2015-ci ilə qədər olan dövrdə ağacların yaşını göstərən halqalarda karbon və oksigen izotoplarını təhlil ediblər. Bu məqsədlə dünyanın müxtəlif yerlərində 84 sahədən 35-dən çox ağac növü seçilib. Məlum olub ki, bu müddətdə ağacların demək olar ki, hamısı daha çox karbon qazı udmağa başlayıb, fotosintez prosesi daha səmərəli olub.**

## "Rejissor filmə çəkilməyim üçün sinə əməliyyatı tələb etdi"

2000-ci ildə dünya gözəli seçilən və karyerasına aktrisa kimi davam edən Bollivud ulduzu Priyanka Çopra maraqlı açıqlaması ilə diqqət çəkib. Axşam.az xarici KİV-ə istinadən bildirir ki, o, bir neçə il əvvəl çəkildiyi filmlərdən birinin rejissorunun ona sinə əməliyyatı etdirməsini söylədiyini deyib. Lakin aktrisa bunu qəbul etməyib və həmin ekran işində çəkilmək fikrindən daşınıb. 38 yaşlı aktrisa yeni qələmə aldığı "Unfinished" adlı kitabında plastik əməliyyat istəyinin kino sektorunda normal hal olduğunu yazıb. Sənətçi artıq belə halları adi qəbul etdiyini vurğulayıb.



## ELAN

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar Ümumi Yığıncağı 15.02.2021 tarixində saat 12:00-da Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov 27 ünvanında yerləşən şirkətin ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə şirkətin ofisində tanış ola bilərlər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**